# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 65

*Milli Məclisin iclas salonu.*
*3 mart 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 116 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Səbinə Əliyeva**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).

**Aydın Səfixanlı**, Azərbaycan Respublikası Ombudsman Aparatının rəhbəri.

**Rəşad Novruzov**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin müşaviri.

**Aytən Tarverdiyeva**, Azərbaycan Respublikası Ombudsman Aparatının sektor müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi.

2. Uşaq hüquqları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, “Gənclər siyasəti haqqında”, “Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”,

“Bədən tərbiyəsi və idman haqqında”, “Sosial xidmət haqqında”, “Reklam haqqında”, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında”, “Uşaqların zərərli informasiyadan qorunması haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Müdafiə haqqında”, “Veteranlar haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Polis haqqında”, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

8. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səbinə Əliyeva, Zahid Oruc, Rəşad Mahmudov, Qüdrət Həsənquliyev, Fazil Mustafa, Azay Quliyev, Hicran Hüseynova, Sahib Alıyev

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**2. Uşaq hüquqları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Şahin İsmayılov, Əziz Ələkbərov, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 112 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamran Bayramov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**6. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Müdafiə haqqında”, “Veteranlar haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Polis haqqında”, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Əziz Ələkbərov, Əli Hüseynli, Şahin İsmayılov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**8. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 112 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*3 mart 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Xahiş edirəm, hörmətli deputatlar, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasımıza başlayırıq.

Xahiş edirəm, indi gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyimizin məsələlərinə keçirik. 8 məsələmiz var.

Gündəliyin 1-ci məsələsi qərar layihəsidir. Qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsini dinləyəcəyik. Məsələ ilə əlaqədar İnsan hüquqları üzrə müvəkkil hörmətli Səbinə xanım Əliyeva və Ombudsman aparatının rəhbəri hörmətli Aydın müəllim Səfixanlı iclasımızda iştirak edirlər. Mən bir daha sizi salamlayıram.

İllik məruzəni təqdim etmək üçün, Səbinə xanım, mən Sizə söz verirəm. Xahiş edirəm, kürsüyə keçin. Buyurun.

**Səbinə Əliyeva,** *Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).*

Hörmətli xanım sədr, hörmətli deputatlar, hər birinizi salamlayır və ombudsmanın Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında 2025-ci il üzrə məruzəsinin qısa icmalını diqqətinizə çatdırmaq istərdim.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü münasibəti ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi rəmzi xarakter daşımaqla yanaşı, dövlətçilik ənənələrimizin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi baxımından strateji əhəmiyyət kəsb etmiş, qanunun aliliyinin və suverenlik dəyərlərinin təbliği və təşviqinə xidmət etmişdir.

Qeyd olunmalıdır ki, ötən il ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi, sosial və institusional islahatlara əsaslanan proseslərlə yadda qalan olmuşdur. Müasir çağırışlar, qlobal və regional reallıqlar fonunda ölkəmizin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi, dövlət idarəçiliyinin

müasirləşdirilməsi, sosial rifahın yüksəldilməsi və dayanıqlı inkişafın təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Torpaqlarımızın işğaldan azad edilməsi ilə başlanan, dövrün irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni inkişaf mərhələsində görülən işlər olduqca təqdirəlayiqdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində işğaldan azad edilmiş ərazilərimizin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, geniş miqyaslı müasir infrastruktur layihələrinin həyata keçirilməsi, iqtisadi fəaliyyətin bərpası və sosial xidmətlərə əlçatanlığın təmin olunması istiqamətində davam etdirilən tədbirlər 30 ildən çox doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın öz doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışına, bununla da pozulmuş fundamental hüquqlarının bərpasına imkan yaratmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə işğaldan azad olunmuş torpaqlarımızda dağıdılmış tarixi, mədəni və dini obyektlərin bərpası və yenidən inşası istiqamətində kompleks tədbirlər davam etdirilməkdədir.

Ölkə Prezidentinin yürütdüyü uğurlu xarici siyasət Azərbaycanın regional sülh və təhlükəsizlik gündəminin ardıcıl şəkildə irəli aparılması üçün əlverişli zəmin yaratmış, siyasi-hüquqi sabitlik və güclənmiş suverenlik amili Azərbaycan və Ermənistan arasında sülh prosesinin yeni mərhələyə keçməsini təmin edən başlıca faktorlardan olmuşdur. Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində iki ölkə arasında birgə

bəyannamənin imzalanması uzun illər insan hüquqlarının pozulmasına səbəb olmuş münaqişənin bitməsinə, regionda sülh və sabitliyin bərqərar olmasına, dövlətlərarası münasibətlərin, o cümlədən iqtisadi əməkdaşlığın genişlənməsinə və nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına əsaslı şərait yaratmışdır.

Türkdilli ölkələrlə əlaqələrin inkişaf etdirilməsi türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələr arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına, habelə koordinasiyalı təhlükəsizlik siyasətinin formalaşdırılmasına xidmət etmiş, insan hüquq və azadlıqlarının qorunması və təşviqi üçün daha əlverişli regional mühitin formalaşmasına töhfə vermişdir.

Qlobal və regional miqyasda əldə edilən mühüm nailiyyətlər, habelə müasir tendensiyalar və çağırışlar ombudsmanın insan hüquq və azadlıqlarının təmin olunması üzrə fəaliyyətinin daha da təkmilləşdirilməsi, təsisatın institusional potensialının gücləndirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Ötən il ombudsman Konstitusiya qanunu ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində insan hüquq və azadlıqlarının müdafiəsi, hüquq pozuntularının qarşısının alınması, habelə hüquq mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi çoxşaxəli fəaliyyətini dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, media subyektləri və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində davam etdirmişdir.

Nəzərinizə çatdırmaq istərdim ki, 2025-ci ildə ombudsmanın ünvanına 42 min 685 müraciət daxil olmuşdur. 7/24 rejimində fəaliyyət göstərən ombudsmanın “916” Çağrı Mərkəzi tərəfindən 14 min 718 zəng qəbul

edilmişdir. İl ərzində ombudsman, onun aparatı və regional mərkəzləri tərəfindən, ümumilikdə, 9 min 60 nəfər şəxs qəbul edilmişdir.

Ombudsmana ünvanlanan müraciətlərin araşdırılması məqsədi ilə aidiyyəti dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlara sorğular ünvanlanmış, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılması və pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlər görülmüş, təklif və tövsiyələr verilmişdir. Bununla yanaşı, ombudsmanın səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edənlərə həm qəbul zamanı, həm də rəsmi məktub vasitəsi ilə hüquqi məsləhətlər, insan hüquq və azadlıqlarının müdafiəsi formaları, üsulları, habelə müxtəlif hallarla bağlı aidiyyəti orqanlara müraciət etmələri barədə izahatlar verilmişdir.

Ötən ilin mühüm hadisələrindən olan Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnun təmini vəziyyəti ombudsman tərəfindən diqqətdə saxlanılmış, paytaxtda və regionlarda seçki hüququ ilə bağlı maarifləndirmə tədbirləri təşkil olunmuşdur. Ombudsman aparatının və regional mərkəzlərin əməkdaşları tərəfindən 38 şəhər və rayonda, o cümlədən muxtar respublikada 101 seçki dairəsi üzrə 708 seçki məntəqəsində müstəqil olaraq öz təşəbbüsləri əsasında müşahidələr aparılmışdır. Seçki günü seçki hüquqlarının pozulması ilə bağlı ombudsmanın ünvanına hər hansı bir şikayət və ya müraciət daxil olmamışdır.

Son illər informasiya texnologiyalarının sürətlə inkişafı, xüsusən də süni intellektin bütün sahələr üzrə geniş tətbiqi informasiya əldə etmək hüququnun reallaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Bu hal, xüsusən fərdi məlumatların, habelə qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların mühafizəsi ilə bağlı hüquqi

tənzimləmələrin təkmilləşdirilməsini və yeni təhlükəsizlik mexanizmlərinin tətbiqini zəruri edir.

Qeyd olunanları nəzərə alaraq, bu sahədə prioritet istiqamətlərin müəyyən edilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsal texnologiyalardan, süni intellektdən düzgün istifadə və nəzarət tədbirlərinin gücləndirilməsi, rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsi üzrə maarifləndirici proqramların həyata keçirilməsi olduqca əhəmiyyətlidir.

İnformasiya əldə etmək hüququnun daha səmərəli təmin edilməsi məqsədi ilə “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda fiziki şəxslərə özləri barədə fərdi məlumatların təbii inhisar subyektlərindən informasiya sorğusu əsasında əldə etmək imkanını məhdudlaşdıran normaya müvafiq dəyişiklər edilməsi ilə həmin məhdudiyyətin aradan qaldırılması məqsədəmüvafiqdir.

Rəqəmsallaşdırmanın və süni intellektin bütün sahələrdə olduğu kimi, əmək hüququnun həyata keçirilməsi və müdafiəsi mexanizmlərinə də təsirini nəzərə alaraq, texnoloji dəyişikliklərə hazırlıq məqsədi ilə regionlar üzrə əmək bazarının öyrənilməsi, işçilərin hüquqlarının qorunmasına yönəlmiş kollektiv tədbirlər planının hazırlanması, süni intellektin tətbiqi nəticəsində ixtisar olunacaq və ya adaptasiya çətinliyi yaşayacaq şəxslərə dəstək mexanizmlərinin yaradılması olduqca zəruridir.

Bununla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi əsas şərtlərdəndir. Müvafiq icra hakimiyyəti orqanının “əmək və məşğulluq” alt sistemi üzərindən tərtib olunmuş göndərişlərinin əsassız olaraq icra edilməməsi hallarının aradan qaldırılması üzrə mexanizmlərin işlənib hazırlanması və ya bu kimi hallarda şəxslərin işsizlikdən sığorta müavinəti ilə təmin edilməsi həlli vacib məsələlərdəndir.

Vətəndaşların sosial təminat hüquqlarının daha səmərəli və effektiv qaydada reallaşdırılması məqsədi ilə özünüməşğulluğun təşkili prosesi tam başa çatanadək, yəni işsiz şəxslərə əmlak təhvil verilənədək onların məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məqsədəmüvafiqdir.

Əmək pensiyasının və əmək pensiyasına əlavənin artıq ödənilməsinin pensiyaçının səhvindən baş vermədiyini, bu halın müvafiq qurumun fəaliyyətində olan funksional nöqsanlarla bağlı olduğunu, habelə sonrakı tutulmaların əmək pensiyaçısının sosial vəziyyətini ağırlaşdırdığını nəzərə alaraq, artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləğinin pensiyaçıdan tutulması üçün qanunvericiliklə müəyyən edilmiş müddətin minimuma endirilməsi zəruri hesab olunur.

Şəxs müddətli həqiqi hərbi xidmətdə olduğu vaxtda onun uşaqlarına ödənilən müavinətin məbləğinin ölkə üzrə uşaqlar üçün müəyyən edilmiş yaşayış minimumuna uyğunlaşdırılması məqsədəmüvafiqdir.

Əvvəlki illərdə olduğu kimi, əlillik vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə həkim-məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş göndərişlərin bir çox hallarda natamam hesab edilməsinin qiymətləndirmə prosesində çətinliklərə və əlillik təyinatının müəyyən müddət gecikməsinə səbəb olduğunu nəzərə alaraq, bu prosesdə iştirak edən qurumlar arasında koordinasiyalı və qarşılıqlı etimad prinsipinə əsaslanan fəaliyyətin təmin olunması, qiymətləndirmə prosedurlarının sadələşdirilməsi olduqca vacibdir.

Əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli təmin olunması məqsədi ilə infrastruktur obyektlərinin, yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı həmin şəxslərin tələbatlarının nəzərə

alınması məqsədi ilə layihələndirmə standartlarının yenilənməsi, tikinti prosesində müyəssərlik tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi, bu sahədə monitorinqlərin aparılması və problemlərin aradan qaldırılması, habelə metro və digər ictimai nəqliyyatın əlçatanlıq komponentləri ilə təmin olunması üzrə konkret fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqi zəruridir.

Əhalinin sağlamlıq hüququnun effektiv şəkildə həyata keçirilməsi məqsədi ilə regionlarda ixtisaslaşdırılmış tibbi xidmətlərin əlçatanlığının təmin edilməsi və bununla da səhiyyə infrastrukturunun ölkə üzrə balanslı şəkildə təşkili, habelə ilkin səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi vacibdir. Bununla əlaqədar “Kənd yerlərindəki tibb müəssisələrinə tibbi kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə nəzərdə tutulan maliyyə təminatlarının dövrün sosial-iqtisadi tələblərinə uyğun yenidən nəzərdən keçirilməsi də məqsədəmüvafiqdir.

Elmi araşdırmalar, habelə bu sahədə digər ölkələrin müsbət təcrübəsi nəzərə alınmaqla şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın həcminə, inyeksiya vasitələrinin, insulin və digər şəkər salıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısına və miqdarına yenidən baxılması zəruridir.

Bununla yanaşı, onkoloji xəstəliklərin müalicəsində istifadə edilən dərman preparatlarının spektrinin genişləndirilməsi və 2006-cı ildə təsdiq edilmiş “Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı”na müasir tələblərə uyğun olaraq, yenidən baxılması da məqsədəmüvafiqdir.

Ombudsman yanında Psixi sağlamlıq və insan hüquqları sahəsində işçi qrupun fəaliyyəti çərçivəsində sosial şəbəkələr üzrə aparılan

monitorinqlərin nəticələrindən irəli gələrək diqqətinizə çatdırmaq istərdim ki, psixi sağlamlıq sahəsində yardım göstərmək hüququ olmayan şəxslər tərəfindən internet üzərindən müvafiq seans və məsləhət xidmətlərinin göstərilməsinin qarşısının alınması üzrə mexanizmlərin işlənib hazırlanması, habelə psixi sağlamlıq sahəsində milli strategiyanın qəbul edilməsinin sürətləndirilməsi də məqsədəmüvafiqdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Uşaq bağçalarının nümunəvi ştatı"na və "Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları"na "uşaq psixoloqu" ştatının əlavə edilməsi məsələsi aktual olaraq qalmaqdadır.

Ölkəmizdə uşaqların daha çox istifadə etdikləri sosial şəbəkə, platforma və internet saytları, o cümlədən televiziya proqramları, filmlər və oyunlar üzrə zorakılığı təbliğ edən halların müəyyən edilməsi və qarşısının alınması məqsədi ilə davamlı monitorinqlərin aparılması, bu yaşda olan şəxslərin psixikasına, sağlamlıq durumuna və davranışına mənfi təsir edə biləcək halların müəyyən edilməsi və məhdudlaşdırıcı tədbirlərin görülməsi, bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi həlli vacib məsələlərdəndir.

Təhsil hüququnun ayrı-seçkiliyə yol verilmədən zamanında reallaşdırılması və bununla da bərabərlik hüququnun təmin edilməsi məqsədi ilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsində qiyabi təhsil alan şəxslərə münasibətdə də çağırışa möhlət verilməsi ilə bağlı müvafiq dəyişikliyin edilməsi təklif olunur.

Ölkə üzrə mövcud kitabxana fondlarının vahid rəqəmsal sistemə inteqrasiyasının təmin edilməsi və bununla da mərkəzləşdirilmiş milli kitabxana platformasının yaradılması hər bir şəxsin kitabxana resurslarına

onlayn və bərabər çıxış imkanının təmin edilməsi, habelə maliyyə və insan resurslarından daha səmərəli istifadə olunması, idarəetmə və texniki xərclərin optimallaşdırılması baxımından əhəmiyyətli ola bilər.

Müasir informasiya texnologiyalarının istehlakçı hüquqlarına təsirinin davamlı monitorinqinin aparılması, qanunvericiliyin, xüsusi ilə də “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Elektron ticarət haqqında” Azərbaycan Respublikası qanunlarının və digər normativ hüquqi aktların müsbət beynəlxalq təcrübə əsasında müasir tələblərə uyğunlaşdırılması, bu sahədə maarifləndirici materialların hazırlanması və hədəf qrupları üzrə birgə maarifləndirmə tədbirlərinin keçirilməsinə diqqət artırılmalıdır.

Yaşayış yerinin yeni mülkiyyətçisi tərəfindən həmin ünvana əvvəllər qeydiyyata götürülmüş şəxslərin qeydiyyatdan çıxarılmasının məhkəmədənkənar sadələşdirilmiş mexanizminin işlənib hazırlanması, bununla əlaqədar “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununa zəruri dəyişikliklərin edilməsi məhkəmələrin iş yükünün azaldılması və mülkiyyətçinin hüquqlarının daha səmərəli təmin edilməsi baxımından olduqca vacibdir.

Borclu dövlət orqanlarına münasibətdə məhkəmə qərarlarının icrası mexanizmlərinə yenidən baxılması və bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi aktual məsələlərdən biri olaraq qalmaqdadır.

2025-ci ildə ombudsman tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm qaydada, habelə daxil olmuş müraciətlər əsasında başçəkmələr davam etdirilmiş, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədi ilə səlahiyyətli dövlət qurumlarına müvafiq təklif və tövsiyələr ünvanlanmışdır.

Törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsi və xarakteri nəzərə alınmaqla, məhkum edilmiş şəxslərin cəza çəkdikləri müddət ərzində ixtisas və peşə bacarıqlarına uyğun olaraq, müvafiq sahələrə cəlb olunmaları onların bilik və bacarıqlarından səmərəli qaydada istifadə edilməsinə və həmin məhkumların islah prosesinin effektivliyinin artırılmasına xidmət edə bilər.

Xarici ölkələrin müsbət təcrübəsi nəzərə alınmaqla, yetkinlik yaşına çatmayan, habelə xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş məhkumların ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edə bilmələri üçün mexanizmin işlənib hazırlanması həmin şəxslərin təhsil hüququnun təmini baxımından olduqca əhəmiyyətlidir.

Ombudsman il ərzində məhkumların və onların ailə üzvlərinin əfv barədə müraciətlərini nəzərə alaraq, müntəzəm qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasına təkliflərini göndərmiş və komissiyanın iclaslarında iştirak etmişdir. Ombudsmanın müraciətləri əsasında, ümumilikdə, 900 məhkum, 2025-ci ildə isə 21 məhkum əfv edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Konstitusiya və Suverenlik İli” münasibəti ilə amnistiya elan edilməsinə dair təşəbbüsü dövlətin humanizm siyasətinin ardıcıl və sistemli şəkildə davam etdirilməsinin bariz nümunəsi oldu. Bu təşəbbüs əsasında Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş sayca 13-cü olan amnistiya aktı, ümumilikdə, 20 mindən çox şəxsi əhatə etməklə, bu zamana qədər qəbul edilmiş ən geniş miqyaslı amnistiya aktı kimi tarixə düşdü.

Qeyd etmək istərdim ki, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilmiş başçəkmələr zamanı rəftar, saxlanma şəraiti, sənədləşmə, tibbi xidmətin vəziyyəti, qidanın rasionu və keyfiyyəti,

hüquqların təmini vəziyyəti və sair məsələlər diqqətdə saxlanılmış, konfidensial görüşlər keçirilmiş, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində ombudsmanın tövsiyələrinin icra vəziyyəti yoxlanılmışdır.

2025-ci ildə ombudsmanın milli preventiv mexanizm fəaliyyəti çərçivəsində, ümumilikdə, 355 başçəkmə həyata keçirilmişdir ki, onlardan 93-ü plandankənar olmuşdur. Başçəkmələr zamanı, ümumilikdə, 3 min 462 nəfər qəbul edilmişdir.

Ombudsmanın müstəqil monitorinq mexanizmi funksiyası çərçivəsində uşaqların, qadınların, ahıl və əlilliyi olan şəxslərin hüquqları, onların reabilitasiyası və inklüzivlik məsələləri, habelə bərabərlik hüququnun təmini və ayrı-seçkilik hallarının qarşısının alınması ilə əlaqədar sistemli monitorinqlər həyata keçirilmiş, hesabatlar hazırlanmış və mediada yayılmışdır.

Qanunvericiliyin insan hüquq və azadlıqlarının daha səmərəli təmini baxımından təkmilləşdirilməsi məqsədi ilə 2025-ci ildə də ombudsmanın normativ hüquqi aktların, o cümlədən dövlət proqramları və fəaliyyət planları layihələrinə dair verdiyi rəy və təkliflər nəzərə alınmışdır.

Ombudsmanın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığı insan hüquq və azadlıqlarının səmərəli təmin olunması baxımından xüsusi önəm daşıyır. Bu əməkdaşlıq Konstitusiyanın aliliyinin təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması və hüquqi müdafiə mexanizmlərinin effektivliyinin artırılması məqsədlərinə xidmət edir. Ötən il ərzində ombudsman tərəfindən Konstitusiya Məhkəməsinə ünvanlanmış üç sorğu üzrə müvafiq qərar və qərardadlar qəbul edilmişdir.

İl ərzində paytaxtda və regionlarda ictimaiyyətin, habelə dövlət qurumlarının insan hüquq və azadlıqları sahəsində məlumatlılıq səviyyəsinin artırılması məqsədi ilə davamlı olaraq maarifləndirmə tədbirləri həyata keçirilmiş, vətəndaş cəmiyyəti institutları və media ilə qarşılıqlı əməkdaşlıq əlaqələri gücləndirilmişdir.

Nəzərinizə çatdırmaq istərdim ki, 2025-ci il ərzində ombudsmanın fəaliyyəti ilə bağlı Azərbaycan və ingilis dillərində 245 mətbuat açıqlaması yayımlanmış, rəsmi sosial media hesablarında 1733 paylaşım edilmişdir. Ombudsman fəaliyyəti haqqında yerli və xarici mediada, ümumilikdə, 4083 məlumat yayımlanmışdır.

İnsan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı nümayiş etdirilən ikili standartlara, ölkəmiz əleyhinə qərəzli mövqeyə, dini, etnik və milli ayrı-seçkilik elementləri daşıyan çıxış və yazılara ombudsman tərəfindən operativ mövqe bildirilmişdir.

İnsan hüquq və azadlıqlarının təşviqi və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə də xüsusi önəm verilmişdir. Qeyd olunmalıdır ki, Azərbaycan ombudsmanı milli insan hüquqları təsisatlarının beynəlxalq və regional şəbəkələrinin rəhbər heyətlərində yüksək səviyyələrdə təmsil olunmaqla yanaşı, onların işlərində fəal iştirak etməkdədir. İl ərzində beynəlxalq və regional təşkilatlarla, habelə xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müsbət təcrübəmizin qlobal platformalarda tanıdılmasına və nəticə etibarı ilə respublikamızın beynəlxalq aləmdə mövqeyinin və nüfuzunun daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Ombudsmanın təşəbbüsü ilə “Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda

keçirilmiş Ombudsmanların Beynəlxalq Simpoziumu insan hüquqları sahəsində maarifləndirmə fəaliyyətinin mühüm tərkib hissəsi olmaqla yanaşı, müsbət təcrübə mübadiləsinin və insan hüquqlarının müdafiəsi sahəsində milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə vermişdir.

Azərbaycan Respublikasının Prezidentinin simpozium iştirakçılarına ünvanladığı müraciəti müasir çağırışlar fonunda beynəlxalq əməkdaşlıq və birgə səylərin artırılması üzrə gələcək prioritetlərin müəyyən edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Ombudsmanların beynəlxalq simpoziumunun iştirakçılarının Milli Məclisin sədri xanım Sahibə Qafarova tərəfindən qəbul edilməsi, insan hüquqları sahəsində çoxtərəfli hüquqi dialoqun dərinləşməsi və institusional əməkdaşlığın gücləndirilməsi baxımından mühüm təşəbbüs olmuşdur.

Ombudsman və onun nümayəndələrinin iştirak etdiyi beynəlxalq tədbirlərdə, insan hüquqları sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlara ünvanlanmış bəyanat, müraciət və açıqlamalarda etnik təmizləmə siyasəti nəticəsində doğma torpaqlarından zorla qovularaq qaçqın düşmüş yüz minlərcə azərbaycanlının fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulması faktları diqqətə çatdırılmışdır.

Bununla yanaşı, mina probleminə diqqət çəkilərək işğaldan azad olunmuş ərazilərdə basdırılmış minaların insanların həyat və sağlamlığının itirilməsinə səbəb olduğu, dəqiq mina xəritələrinin bu günədək təqdim edilmədiyi və bu səbəbdən keçmiş məcburi köçkünlərin doğma torpaqlarına geri qayıdışı, təhlükəsiz yaşaması üçün ciddi təhdid və məhdudiyyətlərin yarandığı qeyd edilmişdir.

Ombudsmanın 2025-ci il üzrə məruzəsində insan hüquqlarının qorunması sahəsində əldə edilmiş nailiyyətlərin, mövcud çətinliklərin

obyektiv təhlili təqdim edilməklə yanaşı, insan hüquq və azadlıqlarının daha effektiv təmini və müdafiəsi, normativ hüquqi aktların təkmilləşdirilməsi, institusional koordinasiyanın gücləndirilməsi və dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması üzrə təkliflər də irəli sürülür.

Sonda qeyd etmək istərdim ki, insan hüquqlarının təmin edilməsi yalnız hüquqi öhdəlik deyil, həm də cəmiyyətin mövcudluğunun və davamlı inkişafının, sosial ədalətin və insan ləyaqətinin qorunmasının əsas şərtlərindəndir. Bu baxımdan, dövlət qurumlarını, elm və təhsil müəssisələrini, araşdırma mərkəzlərini, vətəndaş cəmiyyəti institutlarını, media nümayəndələrini və ümumilikdə, bütün cəmiyyəti insan hüquqlarının qorunması və təşviqi istiqamətində birgə səylərin və əməkdaşlığın gücləndirilməsinə dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Səbinə xanım. Hörmətli həmkarlar, illik məruzəyə profil komitədə – İnsan hüquqları komitəsində baxılmışdır. Mən indi komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, hörmətli Səbinə xanım. İnsan hüquqları komitəsində ombudsmanın illik məruzəsinə vətəndaş cəmiyyəti institutlarının birgə iştirakı ilə açıq və səmərəli müzakirələrə geniş şərait yaratdığı üçün hörmətli sədrə səmimi təşəkkürlərimizi bildiririk.

Dəyərli millət vəkilləri, biz qlobal təhlükələrin artdığı bir dövrdə insan hüquqları üzrə müvəkkilin illik məruzəsinə qiymət veririk. İkinci Dünya müharibəsindən sonra formalaşan təhlükəsizlik sisteminin çökdüyü, beynəlxalq insan hüquq və azadlıqlarının təminatına dair konvensiyaların

iflasa uğradığı yeni növ müharibələrin baş verdiyi bir dövrdə yaşadığımızın fərqindəyik. Yerləşdiyimiz regionda qitələrarası qarşıdurma riski yaradan və geniş coğrafiyanı əhatə edən münaqişələr fonunda milli təhlükəsizlik məsələsi bütün hüquq və azadlıqlardan ön yerə çıxır. Azərbaycan Konstitusiyasının 109-cu maddəsində Prezidentin səlahiyyətləri sırasında dövlətin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin edilməsi xüsusi yer tutur. İndi tam inamla deyə bilərik ki, dünya dövlətləri sırasında vətəndaşların və bütövlükdə, xalqımızın təhlükəsiz yaşamaq hüququnu təmin edən dövlətlərdən biri məhz Azərbaycandır. Prezident İlham Əliyevin rəhbərliyi ilə 6 il əvvəl qazandığımız tarixi qələbədən sonra başlayan sülh quruculuğu yerləşdiyimiz regionu əhatə edən qlobal təhlükələri aradan qaldırmaq, regional və beynəlxalq nizamı təmin etmək üçün ədalətli hüquqi, siyasi təməldir. Yaxın qonşuluğumuzda, xüsusi ilə İran və 11 dövləti əhatə edən gərginliklərin daha geniş miqyaslı qarşıdurmaya çevrilməməsi üçün dövlət başçımızın dəfələrlə vurğuladığı kimi, Azərbaycan hər zaman barışdırıcı və dialoqa əsaslanan mövqe nümayiş etdirib. Ona görə də insan hüquq və azadlıqlarının ən böyük təminatçısı Prezident İlham Əliyevdir. Ölkə rəhbəri təkcə xalqımızın deyil, həm də beynəlxalq təhlükəsizliyin, habelə regional sabitliyin təminatçılarından biridir. Yaranmasından keçən 25 il ərzində illik məruzələr ombudsmanın fəaliyyətinin əsas meyarı, insan hüquqları sahəsində aparılan dövlət siyasətinin indikatoru, müvəkkilin Konstitusiya ilə müəyyən edilən səlahiyyətlərin gerçəkləşdirilməsi səviyyəsinin mühüm göstəricisidir.

Məruzənin həsr olunduğu il Azərbaycan üçün milli və beynəlxalq səviyyədə tarixi uğurlarla zəngin olub. Xüsusi ilə Konstitusiya və suverenlik ili dövlətimizin tam suverenliyinə nail olunması, on minlərcə məcburi köçkününü doğma torpaqlarına qayıdışı ilə yanaşı, ilin sonunda elan olunan

amnistiya aktı 20 mindən çox insanı əhatə edib. 2025-ci ildə ölkəmizdə və regionda Azərbaycanın Zəfəri ilə başlayan yeni mərhələ insan hüquqları sahəsində dünyada heç bir ölkənin nail olmadığı uğura, Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması kimi tarixi addıma səbəb olub. Məlumdur ki, sülh hüququ BMT tərəfindən tanınan fundamental insan hüququdur. BMT Baş Assambleyası tərəfindən xalqların sülh hüququ haqqında bəyannamə 1984-cü ildə qəbul olunub. Orada deyilir: "Sülh hüququ xalqların müqəddəs hüququdur". BMT dövlətlərə və beynəlxalq təşkilatlara tapşırır ki, xalqların bu hüququnu təmin etsin. Əminəm ki, bu, Azərbaycan tərəfindən gerçəkləşən haqlardan biridir. Hesabatın tərtibatı, strukturu və məzmunu həm də müvəkkilin insan hüquqlarının qorunması sahəsindəki fəaliyyət göstəricilərinin dinamikasını əks etdirən mötəbər data bazadır.

Məruzədə bir çox müsbət ilklər yer alıb və onları məhz strukturda aydın görmək mümkündür. İlk dəfə 7 yeni yarım fəsil əlavə olunub. I fəsilin üzərinə Ermənistandan qaçqın düşən azərbaycanlıların hüquq və azadlıqları əlavə edilibdir.

Məruzədə təklif və tövsiyələrin səhifə həcmi də, onların sayı da artıb, o cümlədən tövsiyələr əvvəlki ildə – 2024-cü ildə 78 idisə, indiki halda bu, 94 təşkil edib. Diaqramların da sayı 6-dan 20-ə çatdırılıb. Bu, yalnız statistika deyil, beynəlxalq modellərdə ombudsmanların üzərinə qoyulan mühüm tələblərdir ki, bu indikatorlar əsasında ölkədə insan haqlarının vəziyyəti ölçülmüş olsun.

Ombudsmana müraciətlərin statistikası və dinamikası vacib əhəmiyyət kəsb edir. 2025-ci ildə müvəkkilə, qeyd olunduğu kimi, 42 mindən artıq müraciət edilib və bu, 2024-cü ildən 13 min ədəd, yəni sayda çoxdur. O cümlədən "916" çağrı mərkəzinə də 14 min müraciət edilib. Əlbəttə,

rəqəmlər həm hakimiyyət orqanlarının fəaliyyəti, həm problemlərin coğrafiyası və miqyası haqqında aydın təhlillər aparmaq üçün, qeyd etdiyimiz kimi, mühüm bazadır.

Məruzədə 2025-ci ildə aidiyyəti dövlət qurumları tərəfindən görülmüş tədbirlər nəticəsində Suriya Ərəb Respublikasından 18 nəfərin – 5 qadının, 13 uşağın ölkəmizə qaytarıldığı, repatriasiya olunduğu qeyd olunur. Lakin Rusiya–Ukranya müharibəsində həyatını itirən və yaralanan vətəndaşlarımızın  da məsələsinə ayrıca yer verilməsinə ehtiyac olduğunu düşünürük.

Mən komitədə bir çox məsələləri vurğulamışam. Ona görə də ümumi olaraq məhkəmə qərarlarının icrası ilə bağlı, sağlamlıq hüququ, xüsusi ilə də məhkəmə qərarlarının icra vəziyyəti... Hörmətli sədr, biz yaxın aylarda xüsusi icraat institutunun yaradılması ilə bağlı qanun layihələri qəbul etmişik ki, bu da statistikanın cari vəziyyətini dəyişməyə təsir edəcək. O cümlədən narkomaniya və toksikomaniya xəstələrinin sayı, narkotik maddələrin qanunsuz dövriyyəsinə və satışına qarşı daxili işlər orqanlarının peşəkar və qətiyyətli mübarizəsi, mənzil hüququnun təminatı sahəsində xüsusi ilə Bakı şəhərində tikinti-quruculuq işləri zamanı vətəndaşlar və müvafiq tikinti qurumları arasındakı problemlərə də məruzədə geniş yer verilib.

Beləliklə, yekun olaraq biz bir neçə qısa təkliflərimizi, tövsiyələrimizi səsləndirmək istəyirik. Artıq özünü ləğv edən separatçı qurumun ombudsmanı süni fəallıq və mövcudluq görüntüləri yaradır, müxtəlif hesabatlar yayır. Qondarma qurumun müvəkkili, ABŞ vitse-prezidentinin ölkəmizə gələrək buradakı separatçı rəhbərlərlə bağlı müraciətini xatırlayırıq. Lakin bizim insan haqları üzrə müvəkkilimizin Zəfərimizdən sonra səsləndirdiyi “Ombudsman aparatının 4 regional mərkəzi var. Gəncə,

Şəki, Quba və Cəlilabad. Tez bir zamanda beşinci regional mərkəzimiz Qarabağda açılacaq" açıqlaması bir daha buna qayıdaraq Qarabağ bölgəsində konstitusional hüquqi əsaslı regional ombudsman mərkəzinin açılması faydalı olardı. Vətən müharibəsində qələbəmizdən sonra bütün dövlət institutları kimi müvəkkilin yeni institusional hədəfləri qarşıya qoyduğunu nəzərə alaraq, Azərbaycanı hesabatlarına daxil edən ölkələrdən insan haqlarının durumuna dair türk dövlətləri ilə birgə hesabat hazırlamaq təsirli əkstədbirlərdən biri olar.

Süni intellekt və insan haqları yönündə ombudsmanın fəallığını müsbət qiymətləndiririk. Dövlətimizə qarşı xaricdən idarə olunan hibrid hücumlar və süni zəka əsaslı "deep fake"lər insan haqlarını pozan ən böyük problemə çevrilib. Xüsusi ilə də xarici dövlət himayəli terror mediasının sistemli hücumlarına qarşı ombudsmanın məruzələrində sərt mövqenin göstərilməsi təkcə vətəndaşların deyil, həm dövlət institutlarının, həm də millətimizin haqlarının qorunmasına təsir edər.

Hörmətli millət vəkilləri, yekunda bir daha vurğulayaq ki, müvəkkilin fəaliyyətinin 20 ili qaçqın və məcburi köçkünlərlə bağlı məsələlərin əksini tapdığı işğal dövrünün hesabatlarına həsr olunurdu. İndi qalib dövrün məruzələrinə, yeni vətən quruculuğuna və Böyük Qayıdışa qiymət veririk. Təkcə bu fakt hər birimizi daha məsuliyyətli olmağa, Qələbəmizi heç bir hüquq pozuntusu hadisəsinə baxmadan qorumağa, məruzəyə obyektiv qiymət verməyə əsas yaradır. İnanırıq ki, siz də məruzəyə müsbət səs verəcəksiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim.

Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Buyurun, çıxış etmək istəyənlər yazılsınlar. Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox hörmətli sədr, dəyərli həmkarlar, ümumilikdə, bugünkü məruzə ilə əlaqədar bir az əvvəl Zahid Oruc tərəfindən dilə gətirilmiş düşüncələrə qatılaraq bir mövzuya xüsusi diqqət çəkmək istəyirəm. Bu mövzu, əslində, dəyərli ombudsman tərəfindən söyləndi. Mövzu əlliliyi olan şəxslərin hüquqlarının təmin olunmasıdır.

Bildiyimiz kimi, dövlətimizin sosial ədalət prinsipinin mühüm göstəricilərindən biri də əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması məsələsidir. Bu məsələ yalnız bir sosial təminat deyil, həm də insan ləyaqəti, bərabər imkanlar və inklüziv cəmiyyət anlayışı ilə birbaşa bağlıdır. Qeyd etmək istəyirəm ki, son illər bu sahədə çox ciddi və sistemli islahatlar həyata keçirilmişdir. Elektronlaşdırma, mərkəzləşdirilmiş qiymətləndirmə mexanizmləri və obyektiv meyarların tətbiqi nəticəsində uzun illər mövcud olmuş sui-istifadə və korrupsiya halları əhəmiyyətli dərəcədə aradan qaldırılmışdır. Haqsız yerə əlilliyin təyin olunması praktikası minimuma endirilmiş, qərarların obyektivliyi və şəffaflığı gücləndirilmişdir. Bu, həm dövlət büdcəsinin qorunması, həm də sosial ədalətin təmin olunması baxımından mühüm nailiyyətdir. Lakin praktik müstəvidə institusional yanaşmanın təkmilləşdirilməsinə hələ də ciddi ehtiyac var. Bu gün biz bunu ombudsmanın məruzəsində də eşitdik.

Bu gün vətəndaşların ən çox narazı qaldığı məqamlardan biri qərarın izahedilmə mexanizmidir. Proses belədir: Həkim tibbi vəziyyətə uyğun elektron formanı doldurur, sənədlər sosial ekspertizaya göndərilir. Əgər əlillik təyin olunmursa, çox zaman vətəndaşa əlilliyin uyğun olmadığı bildirilmək yerinə, “elektron forma natamam doldurulub”, yəni “bu doldurulmuş dəyərlərə görə sizə əlillik düşmür” kimi ümumi bir ifadə təqdim edilir. Əslində, hər bir tərəf haqlıdır. Yəni sosial ekspertiza öz meyarlarına görə bu əlilliyin düşmədiyini göstərir, həmçinin tibbi tərəfdən də

araşdırdığımız zaman sənədlər çox vaxt tam doğru bir şəkildə doldurulmuş olur. Sonunda vətəndaş "natamam doldurulma" kəlməsini görüncə məsuliyyəti avtomatik olaraq həkimin və tibb müəssisəsinin üzərinə yönəldir. Sanki əlillik statusunun verilməməsinin səbəbi tibbi sənədin natamamlığıdır. Halbuki əlilliyin təyinat meyarları kifayət qədər inkişaf etmiş və funksional məhdudiyyətin obyektiv qiymətləndirilməsinə əsaslanır.

Burada problem meyarların zəifliyi deyil, qərarın əsaslandırılması və kommunikasiya mexanizmidir. Əgər qərar meyar çatışmazlığına görə verilmirsə, bu, açıq və konkret şəkildə bildirilməlidir və bunun kim tərəfindən bildirildiyi də aydın şəkildə göstərilməlidir.

Tibbi sənəd çatışmazlığı ilə normativ meyar çatışmazlığı aydın şəkildə fərqləndirilməlidir. "Natamam doldurulma" kimi ümumi ifadələr isə sistem daxilində məsuliyyətin yanlış istiqamətə yönəlməsinə və sosial gərginliyə səbəb olur. Belə ki, bu cür anlaşılmazlıqlara görə bizlər vətəndaşla görüşdüyümüz zaman müraciətlərin böyük bir hissəsi bu mövzularla bağlı olur. Hesab edirəm ki, növbəti mərhələdə qərarların əsaslandırılması daha detallı və standartlaşdırılmış formada təqdim olunması üçün elektron sistem üzərindən vətəndaşa izahlı rəy verilməsi, səhiyyə müəssisələri ilə sosial ekspertiza orqanları arasında metodoloji koordinasiyanın daha da gücləndirilməsi vacib bir məsələdir. Biz haqsız təyinatların qarşısını almışıq, indi isə vəzifəmiz haqlı müraciət edən vətəndaşın qərarı aydın və əsaslandırılmış şəkildə anlamasını təmin etməkdir. İslahatların məqsədi yalnız korrupsiyanın qarşısını almaq deyil, eyni zamanda, sistemlə ictimai etimadı daha da artırmaqdır.

Mən ombudsmanın bugünkü məruzəsini yüksək qiymətləndirirəm və millət vəkillərini də səsverməyə dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Bu gün od çərşənbəsidir. Bu münasibətlə hamınızı təbrik edirəm.

Ombudsmanın hesabatı ilə bağlı qeyd etmək istəyirəm ki, dünyanın heç bir ölkəsində ombudsman sosial hüquqların genişləndirilməsi, daha böyük sosial müdafiənin təmin olunması məsələləri ilə məşğul olmur. Bu, həmin ölkələrdə siyasi partiyaların işidir, onlar öz aralarında müzakirə aparırlar və vətəndaşlara vədlər verirlər ki, "mən gəlib nələr edəcəyəm". Ombudsmanın işi daha çox mövcud qanunvericiliyin tələblərinə dövlət hakimiyyəti orqanlarının nə dərəcədə əməl etməsini müəyyən etməkdir.

Bizim cəmiyyətdə hazırda ən çox narazılıq doğuran məqamlardan biri odur ki, insanlar məhkəmələrin qərarlarından şikayət edirlər və məhkəmələrdə ədalət tapa bilmədiklərini söyləyirlər. Mən həmişə söyləmişəm, güclü məhkəmə hakimiyyəti olmadan ölkədə heç vaxt sosial ədaləti təmin etmək mümkün deyil. Heç bir ombudsman bu işin öhdəsindən gələ bilməz, heç bir dövlət orqanı, o cümlədən icra orqanları ölkədə qanunların aliliyini təmin edə bilməz.

Fevralın 26-da Baş nazir İqtisadi Şuranın iclasını keçirdi, orada məhkəmə və hüquq sahəsinə dair məsələlər də müzakirə mövzusu oldu. Düzdür, məni təəccübləndirən və təəssüfləndirən orada Ali Məhkəmənin sədrinin oturduğu yer oldu. Bu özü də cəmiyyət üçün bir mesajdır. Ali Məhkəmənin sədri məhkəmə hakimiyyətinin başında duran şəxsdir və qətiyyən Nazirlər Kabinetinin tərkibinə daxil olmayan bir adamdır. O, ən azı Baş nazirin yanında oturmalı idi. Amma nazirlərin arasında oturdulmuşdu

və hər halda bu, yaxşı bir təəssürat yaratmırdı. Görünür, düşünürlər ki, İnam müəllim hələ də kənd təsərrüfatı naziridir.

Yaxşı olardı, orada ictimaiyyətə məlumat verilsin ki, bu müzakirə nəyin əsasında keçirilib. Orada icra hakimiyyəti orqanları daha çox məhkəmələrdən şikayət edir, yoxsa sahibkarların narazılığı əsasında belə bir müşavirə keçirilib? Biz bilirik, icra hakimiyyəti orqanları xüsusi ilə də inzibati məhkəmələrin qərarlarından şikayət verirlər ki, onlar vətəndaşların, sahibkarların hüquqlarını müdafiə edir, sahibkarlar da şikayət edirlər ki, onlar məhkəmələrdə ədalət tapa bilmirlər.

Xatırlayırsınızsa, vaxtı ilə burada ombudsman hesabat verəndə Gəncə inzibati məhkəməsi ilə bağlı bir məqam diqqətimi cəlb etmişdi. O zaman mən məsələ qaldırdım ki, mənə bu məhkəmənin fəaliyyəti, oradakı süründürməçiliklə bağlı müraciət ediblər. Bu, bir neçə il bundan öncə idi.

Hörmətli sədr və həmkarlar, hörmətli ombudsman. O məsələ bu günə qədər öz həllini tapmayıb. İş o yerə çatıb ki, Ali Məhkəmənin sədri Gəncəyə səfər edib və həmin şikayət edən şəxs Ali Məhkəmənin sədri ilə görüşüb. İnam Kərimov deyib ki, vətəndaşın hüquqlarını bərpa etmək lazımdır. Bundan sonra apellyasiya məhkəməsi yenə işi Konstitusiya Məhkəməsinə göndərib. Konstitusiya Məhkəməsi də deyir ki, vətəndaşın hüquqları bərpa olunmalıdır, amma Konstitusiya Məhkəməsinin də rəyi nəzərə alınmır və İnzibati İşlər üzrə Gəncə Apellyasiya Məhkəməsi o qərarı ləğv edib Ali Məhkəməyə göndərib. Yəni sözüm ondadır ki, sahibkarlar illərcə öz hüquqlarını məhkəmələrdə qoruya bilmirlər. Biz düşünməliyik, necə edək ki, məhkəmə hakimiyyətini gücləndirək.

İkinci, doğrudan da, çox ciddi narahatedici məqamlardan biri. İnsanların çoxu bununla bağlı müraciət edir. Bu yaxınlarda mənə də müraciət etmişdilər. Vicdanlı alıcı məsələsi. Bir nümunə çəkirəm,

hamınızda təsəvvür yaransın ki, nələr baş verir. Məsələn, keçmiş Dövlət Təhlükəsizlik Xidmətinin zabiti mənə müraciət edir və deyir ki, saxta sənədlər əsasında onun yaxın qohumunun torpağı ilə bağlı çıxarış alıblar və başqasına satıblar. O alıcı da dərhal başqasına, o da digərinə satıb. İndi ona deyirlər ki, sənin torpağın çıxarışı əsasında satılıb və geri qaytarıla bilməz.

Bəli, qanunvericilikdə də belədir. Amma bu, doğrudan da, dəhşətdir. Məhkəmələrin işi ədaləti bərpa etməkdir. Bu, Konstitusiyada da yazılıb. Qanunlar da ədaləti müdafiə etməlidir. Mən torpağımı satmaq istəmirəmsə...

Bir qadın məhkəmədə deyir ki, ilk sənədləri onun adına saxtalaşdırıblar və onun heç nədən xəbəri yoxdur. Notarius da yalandan... İcra hakimiyyətinin nümayəndəsi də deyir ki, heç nədən xəbəri yoxdur. Saxta sənədlər əsasında başqasının torpağını satırlar və çıxarış alırlar. Beləcə də torpaq əldən-ələ satılır. İndi vətəndaş deyir ki, mən torpağımı satmaq istəmirəm, torpağımı geri almaq istəyirəm. Ona deyilir ki, sən artıq geri ala bilməzsən, çünki onu alan vicdanlı alıcıdır. Burada sosial ədalət harada qaldı? Bunu da belə əsaslandırırlar ki, guya milli dövriyyənin sabitliyini təmin etmək istəyirlər. Buna görə bu istiqamətdə qanunvericilikdə dəyişiklik etmək lazımdır. Hesab edirəm ki, ombudsman daha çox bu cür məsələlərə diqqət yetirməlidir.

Biz dəfələrlə məhkəmə qərarlarının icrası ilə bağlı danışmışıq. Burada da vəziyyət çox ağırdır. Biz indi xüsusi icra orqanlarının yaranması barədə də qanun qəbul etdik ki, bu sahədə işlər yüngülləşsin. İndi o proses gedir. Amma çox təəssüf ki, vəziyyət hələ də düzəlmir.

Hörmətli sədr, mən əvvəllər də məsələ qaldırmışam. Nazirlər Kabineti sağ olsun, İqtisadi Şuranın iclasında bu istiqamətdə müzakirə keçirilib.

Amma Milli Məclisin özündə də müvafiq icra hakimiyyəti orqanlarının iştirakı ilə ölkədə qanunvericiliyin vəziyyətinə dair bir dinləmənin keçirilməsinə çox böyük ehtiyac var. Mənim söyləyəcəklərim bundan ibarət idi. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, 5 dəqiqəyə keçək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli ombudsman və Ombudsman Aparatının təmsilçiləri. Biz hər dəfə illik məruzəni dinləyəndə bir şeyi xatırlamalı oluruq. Ümumiyyətlə, Hesablama Palatasının rəylərini də oxuyanda, birinci növbədə, orada olan tövsiyələr hissəsinə xüsusi diqqət yetiririk. Mən elə hesab edirəm ki, ölkədə bir çox məsələlərlə bağlı ayrıca köklü islahatlar keçirməyə zərurət yoxdur. Elə Hesablama Palatasının, ombudsmanın tövsiyələrini diqqətlə nəzərə alsaq və orada nəzərdə tutulan müddəaları yerinə yetirməyə çalışsaq, bir çox problemləri operativ həll etmiş olarıq. Burada əmək hüququ, insanların müəyyən əlillik vəziyyətinin yaxşılaşdırılması, onların qeydiyyatı ilə bağlı kifayət qədər cəsarətli tövsiyələr qeyd olunubdur. Hesab edirəm ki, bunlar ciddi diqqətə alınmalıdır.

Xüsusi ilə 60 yaşdan yuxarı şəxslərin əmək müqaviləsinə xitam verilməsinin müəyyən dərəcədə məhdudlaşdırılması istiqamətində təklif önəmlidir. Çünki bir çox yerlərdə adamın əmək pensiyası almasına bir il qalır və ixtisar adı ilə işdən çıxarılır. Vətəndaş tamamilə ağır vəziyyətə düşür. Pensiyadan da başqa dolanışıq yeri olmayan insanlar nə qədər əziyyət çəkirlər.

Mən istərdim ki, hörmətli ombudsmanımız fəaliyyətində bir neçə məsələyə də xüsusi diqqət yetirsin. Bildiyiniz kimi, Azərbaycanda nikahların vəziyyəti və boşanmaların sayı ürəkaçıcı deyil, acınacaqlı bir durum var. 2025-ci ilin 9 ayı ərzində 40 min nikahdan 17 mini boşanma ilə nəticələnibdir. Düzdür, orada keçən ildən cüzi fərq var. Amma ən dəhşətlisi budur ki, son 9 ayda Bakı şəhərində bütün qeydə alınmış nikahların 56 faizi boşanma ilə nəticələnib. Yəni 100 nəfər evlənən, nikah bağlayan ailə varsa, onun 56-sı bir il keçməmiş boşanır. Bu, olduqca ciddi məsələdir. Bunun da bir qismində daha çox evin kişi mənsublu şəxslərini ittiham edirlər, ağırlığı daha çox onların üzərinə qoyub aliment kəsirlər. Onlar bunun sıxıntısını çəkirlər. Bir çox hallarda qadınlar tərəfindən məqsədyönlü şəkildə ailə həyatı qurulandan bir neçə müddət keçib, bir övlad dünyaya gələndən sonra aliment almaq məqsədi ilə süni şəkildə boşanma tələbi irəli sürülür. Mənə elə gəlir ki, biz Mediasiya Şurasına səlahiyyət verməliyik. Əgər onlar həll edə bilmirlərsə, xüsusi ilə bu qadınların, ola bilsin, kişilərin niyyətləri ilə bağlı məhkəməyə rəy versinlər və məhkəmə bu rəyi xüsusi diqqətə alsın, aliment kəsmə məsələsində ədalətli davransın. Çünki bir çox hallarda ailənin pozulmasının səbəbkarını müəyyən etmək olmur. Əmlaka və müəyyən dərəcədə pula görə avantaj əldə edənlər ailənin böyük problem yaşamasına gətirib çıxarırlar.

İkinci böyük məsələlərdən biri Rusiyada yaşayan azərbaycanlılarla bağlıdır. Bildiyiniz kimi, ötən il çox sayda hadisə oldu. O hadisələr gizli şəkildə, latent formada davam etməkdədir. Azərbaycanın çoxlu iş adamları, sıravi azərbaycanlılar, əlində əmlakı olanlar qeyri-qanuni şəkildə cürbəcür ittihamlarla, müxtəlif şantajlarla həbs olunurlar. Onların hüquqlarını qorumaq imkanı olmur. Bəzən ailə üzvlərindən 4 nəfər orada çalışır, ikisi qaçır, canını qurtarır, ikisini həbs edirlər, qoruyacaq kimsə də tapılmır.

Çünki məhkəmə və başqa problemlər artıq elə şəkildədir ki, yuxarıdan göstəriş ilə hərəkət edirlər. Onlar hamısı Azərbaycan vətəndaşlarıdır. Onların qorunması, müdafiəsinin təşkili istiqamətində çox ciddi işlər görülməlidir. Bir çox hallarda onların bura gəlişi-gedişi ilə bağlı məhdudiyyətləri ortadan qaldırmaq olduqca vacibdir.

Əlilliyin qiymətləndirilməsi çox önəmlidir. Biləsuvar rayonunda bir xanım müraciət etmişdi. Uşaqlıqdan keçirdiyi şikəstlik nəticəsində danışa bilmir, xəstədir. Birinci qrup əlillik almaq üçün ona təklif edirlər ki, ruhi xəstəxanada yatmalıdır, sonra oradan sənəd verməlidirlər. Bu, ruhi xəstə deyil ki, sadəcə, şikəstdir, danışa bilmir və öz hüququnu da qoruya bilmir. Yanında gələn savadsız insanlar izah edirlər ki, bunun nə çətinliyi var. Ona görə də bu kimi məsələlərə diqqət yetirilsə, məncə, cəmiyyətdə bu gərginliyi də azaltmaq mümkündür. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, ombudsmanın hesabatı ilə yaxından tanış olmuşam və deyə bilərəm ki, keçən il ombudsman institutu vətəndaşların hüquq və qanuni mənafelərinin qorunması istiqamətində çox səmərəli fəaliyyət göstərmişdir. Təfsilata varmadan yalnız bir rəqəmi xatırlatmaq, yəni təkrar etmək istəyərdim. Hesabat müddətində 42 min 681 vətəndaşın, yaxud da şəxsin ombudsman institutuna müraciət etməsi onu göstərir ki, bu quruma ictimaiyyət tərəfindən yüksək inam var.

Hesabatda insan hüquqlarının müdafiəsi istiqamətində görülən işlərin sistemləşdirilməsi, müraciətlərin müxtəlif kateqoriyalardan olan şəxsləri əhatə etməsi, habelə problemlərin həlli ilə bağlı konkret nümunələrin təqdim olunması da müsbət qiymətləndirilməlidir. Düşünürəm ki, ümumiyyətlə,

ombudsmanın hesabatda qaldırdığı məsələlər aidiyyəti qurumlar tərəfindən öyrənilməli və ombudsmanın irəli sürdüyü tövsiyələr nəzərə alınmalıdır.

Hörmətli həmkarlar, hesabatda bu və ya digər formada toxunulan məsələlərlə bağlı bir neçə məqamı diqqətinizə çatdırmaq istərdim.

Birinci. Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı olan məsələ. Bilirsiniz ki, bu, Azərbaycanın qanunvericiliyi ilə tənzimlənir. Əgər vətəndaşın vergi və digər məcburi ödənişləri varsa, qanunvericiliyə əsasən onun ölkədən çıxmasına məhdudiyyətlər qoyula bilər. Lakin biz praktikada müəyyən problemlərlə üzləşirik. Belə ki, bəzi vergi borcu olan şəxslərə öncədən xəbərdarlıq edilmədən, bildiriş göndərilmədən bələdiyyə orqanlarının müraciəti əsasında icra qurumları tərəfindən onların ölkədən çıxmasına məhdudiyyətlər qoyulur. Bu da ciddi problemlər yaradır. Çünki bilirsiniz ki, məhdudiyyətlərin qoyulması son addım kimi nəzərdə tutulur. Ona qədər müəyyən mərhələ keçməlidir, vətəndaşın vergi borcu olması ilə bağlı müvafiq işlər aparılmalıdır. Vətəndaş hava limanına gedir, ailəsi ilə səyahət etmək istəyir və bəlli olur ki, onun haqqında məhdudiyyət qoyulub. Belə olan halda isə, təbii ki, vətəndaşlarımız narazı qalırlar. Mənə belə gəlir ki, bu məsələyə ciddi yanaşılmalı və aidiyyəti qurumlar bu istiqamətdə olan boşluqları aradan qaldırmalıdırlar.

İkinci məsələ tibbi xidmətlərin göstərilməsi ilə bağlıdır. Hesabatda da qeyd edildiyi kimi, ölkədə hələ də həkimlik hüququ olmadan cərrahi əməliyyatlar həyata keçirən və lisenziyasız fəaliyyət göstərən tibbi müəssisələrin olması, əlbəttə, ciddi narahatlıq doğurur. Bilirsiniz ki, bununla bağlı da mətbuatda bir neçə ay öncə məlumatlar getmişdi. Məhz belə fəaliyyət nəticəsində insanlar ya həyatını itirir, ya da onların sağlamlığına ciddi zərər dəyir. Belə çıxır ki, əgər bu istiqamətdə şikayətlər olmasa, həmin

müəssisələr, yaxud da "həkimlər" fəaliyyətlərini davam etdirəcəklər. Bu baxımdan, aidiyyəti qurumlar da bu məsələyə çox həssaslıqla yanaşmalı və vaxtında bu cür qanunsuz fəaliyyətin qarşısını almalıdırlar.

Digər məsələ icbari tibbi sığorta ilə bağlıdır. Əlbəttə, hər şeydən öncə onu deyim ki, Azərbaycanda son illər icbari tibbi sığorta ilə bağlı çox böyük işlər görülübdür və bunun sistemə oturuşması üçün dövlət tərəfindən artan dəstək hər il yüksələn xətlə artır. Bununla belə, hesab edirəm, tibbi sığorta çərçivəsində hər xəstəyə görə həkimə ödənilən vəsait də diqqətə alınmalıdır. Bildiyim qədər, bu vəsait təxminən 2 manat 40 qəpik arasında dəyişir. Ona görə də yaxşı olardı ki, bu vəsaitə yenidən baxılsın. Çünki vəsaitin az olması həkimlərin motivasiyasına istər-istəməz təsir edir və ixtisaslı həkimlərin ölkədən xaricə getməsi məsələsini daha da stimullaşdırır.

Eyni zamanda, vətəndaşların tibbi sığortadan istifadə edərkən xəstəxana seçimi ilə bağlı qoyulan məhdudiyyətlərin aradan qaldırılması və ya ən azı seçim imkanlarının genişləndirilməsi məsələsinə də baxmaq lazımdır. Belə ki, bu məhdudiyyətlər səbəbindən... Məsələn, uzun illər müəyyən bir həkimin nəzarətində olan vətəndaş həmin həkim onun sığorta sisteminə daxil olan tibb müəssisəsində çalışmırsa, xəstə ya bu xidmətdən məhrum olur, ya da sığortadan yararlana bilmir. Ona görə də yaxşı olardı ki, xəstələrə həkim seçimində sərbəstlik verilsin.

Nəhayət, sonuncu məsələ. Bilirsiniz ki, bu barədə ictimaiyyətdə müəyyən fikirlər, narahatlıq var idi. Bir sıra supermarketlərdə məhsulların üzərində göstərilən qiymətlə kassada tələb olunan məbləğ arasında fərqlər var. Bu fərq, təbii ki, yüksəkdir. Beləliklə, vətəndaşlar faktiki olaraq aldadılırlar. Hesab edirəm ki, bu məsələ də aidiyyəti qurumlar tərəfindən

ciddi şəkildə araşdırılmalıdır və qanunu bu cür pozan qurumlara, yaxud da hüquqi şəxslərə qarşı ciddi tədbirlər görülməlidir.

Ümumilikdə, hesabatı qənaətbəxş hesab edirəm və onun nəzərə alınmasını təklif edirəm. Diqqətinizə görə təşəkkürlər.

**Sədrlik edən.** Sağ olun.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli Səbinə xanım, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Qeyd etmək istərdim ki, təqdim olunan illik məruzə çox yüksək peşəkarlıqla hazırlanmışdır və Ombudsman Aparatının bütün fəaliyyət istiqamətlərini əhatə edir. Təqdim olunan sənəddən də görürük ki, qurum həm yerli, həm də beynəlxalq səviyyədə vətəndaşlarımızın pozulmuş hüquqlarının müdafiəsi sahəsində səmərəli işlər görür. Bütün bu fəaliyyətlər, əldə olunmuş nəticələr və təkliflər illik məruzədə çox diqqətlə və ətraflı şəkildə hazırlanaraq Milli Məclisə təqdim edilmişdir. Mən fürsətdən istifadə edib, Səbinə xanım, Sizə və bütün əməkdaşlarınıza təşəkkür edirəm.

Hörmətli həmkarlarım bir çox məsələləri burada qeyd etdilər. Mən də qısa olaraq bəzi fikirlərimi səsləndirmək istərdim. Sənəddə həssas əhali qruplarının, uşaqların və əlilliyi olan şəxslərin tibbi xidmətlərə əlçatanlığı məsələlərinə geniş yer verilib. Bu məsələ də vacibdir. Xüsusi ilə rayon və kənd yerlərində tibbi və reabilitasiya xidmətlərinə çıxış imkanları məhduddur. Bəzən də insanların mövcud xidmətlər barəsində məlumatları yoxdur. Ona görə də yerlərdə, əlbəttə ki, bu istiqamətdə işlər daha da güclənməlidir. Eyni zamanda, bu sahədə ehtiyacı olan şəhər və rayonlar üzrə monitorinq keçirilməlidir.

Son illərin ən aktual məsələlərindən birinə çevrilən narkomaniya yeniyetmə və gənclər arasında daha sıx yayılmağa başlamışdır. Bu hal

həm uşaq və gənclərimizin sağlamlığına, təhsilinə, gələcək həyatına, həm də onların ailələrinə maddi və mənəvi ziyan vurmaqda davam edir. Biz uşaqlarımızı bu təhlükədən qorumaq üçün daha güclü və təsirli tədbir görməliyik. Bu sahədə mövcud çətinliklər araşdırılmalı və müvafiq layihələr həyata keçirilməlidir.

Biz hər zaman məişət zorakılığına, insan alverinə, erkən nikaha, bullinqə məruz qalmış şəxslərin, küçə uşaqlarının, sağlamlıq imkanları məhdud olan və xüsusi qayğıya ehtiyacı olan uşaqlar və onların ailələri ilə sosial, psixoloji və psixo-pedaqoji işin təşkili məsələsini önə çəkirik. İllik məruzədə də buna çox böyük diqqət yönəlib. Bu sahədə müəyyən işlər görülür. Lakin bu tədbirlər daha da gücləndirilməli, çevik bir mexanizm yaradılmalıdır.

Məruzədə çox vacib bir məsələyə toxunulur. Qərbi azərbaycanlıların tarixi torpaqlarından zorla deportasiya edilməsi ilə əlaqədar, onların hüquqlarının bərpa olunması və dədə-baba yurdlarına qayıtması istiqamətində görülən işlər qeyd olunub. Mən fikirləşirəm ki, Ombudsman Aparatı bu fəaliyyətini daha da gücləndirməlidir, onun çox yaxşı nəticələri var.

Məruzədə məhkəmə qərarlarının vaxtında və tam icra olunmaması ilə bağlı geniş təhlil yer almışdır. Xüsusi ilə də aliment tələbinə dair məhkəmə qərarlarının icrası məsələsi artıq neçə ildir ki, aktualdır. Qanunvericiliyə əsasən alimentin təyin edilməsinin əsas mahiyyəti uşağın ehtiyaclarının ödənilməsidir. Məlumdur ki, bir çoxları aylarca, bəzən illərcə aliment ödəməkdən yayınırlar. Əgər bu uşaqlar arasında xroniki xəstəliyi və ya əlilliyi olan varsa, vəziyyət daha da çətinləşir. Düzdür, alimenti ödəməyən şəxs üçün qanunvericilikdə göstərildiyi kimi, inzibati və ya cinayət

məsuliyyəti müəyyən edilmişdir. Lakin təcrübədə biz görürük ki, borclu bu və ya digər məsuliyyətə cəlb edilsə də, yenə də alimenti ödəmir.

Bütövlükdə, mən də illik məruzəni əhatəli hazırlanmış sənəd hesab edirəm, ona səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Təklif var, səsə qoyaq. Hamı razıdır bununla?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sahib müəllim təkid edir. Sahib müəllim, buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar, ombudsmanın məruzəsi haqda, birinci, onu deyim ki, artıq neçə ildir, təkcə görülən işlərin nədən ibarət olması deyil, həm də bütövlükdə, ictimai-siyasi proseslərin insan haqları prizmasından qiymətləndirilməsi, o sıradan bununla bağlı qanunvericiliyə töhfə baxımından da vacib əhəmiyyət kəsb etməyə başlayıb. Yəni bu, yetərincə geniş məruzə təkcə fakt zənginliyi deyil, belə demək mümkünsə, intellektual ağırlığı, hüquqi çəkisi ilə də diqqəti cəlb edir ki, elə onun giriş hissəsindən də görmək olur.

Düzdür, burada da oxşar hesabatlarda olduğu kimi, müəyyən standartlar saxlanılır, amma şablonçuluq, yaxud da publisistika yoxdur, həssas, dəqiq, dürüst və əhatəli hüquqi qiymətləndirmə var.

Yanılmıramsa, hesabata, ilk dəfədir ki, elmi-analitik fəaliyyətlə bağlı bölmə də əlavə edilib. Həmçinin rəqəmsal transformasiyanın yaratdığı reallıqlar. Qabaqcıl təcrübənin tətbiqi baxımından mən bunu önəmli sayıram.

İnsan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsindən söz düşəndə cəmiyyətdə daha çox açıq nəzərəçarpan dəyişikliklərə fikir verilir. Amma məsələn, ombudsmanın tədris kredit sisteminin təşkili qaydalarında konstitusion hüququn pozulması, Cinayət Prosessual və Əmək

Məcəlləsində bəzi maddələrin Konstitusiyaya uyğunluğunun yoxlanması ilə bağlı uyğun qurum qarşısında məsələ qaldırması insan haqlarının qorunması baxımından təcridxanalara xəbərdarlıq edilmədən baş çəkilməsindən heç də az əhəmiyyətli məsələlər deyil.

Hesabatda faktların bolluğu belə bir təəssürat yarada bilər ki, ölkədə insan haqları sahəsində pozuntuların sayı artıb. Əslində isə, burada daha həssas, təkmil və geniş fəaliyyətdən söhbət gedir ki, nəticədə bəzən bizim özümüzün belə fərqinə varmadığımız reallıqlar, o sıradan da qanunvericilikdəki boşluqlar üzə çıxarılır.

Hörmətli həmkarlar, artıq tam əsasla demək olar ki, dövlətimizin xarici siyasət strategiyasının reallaşmasında bir institut da get-gedə əhəmiyyətli yer tutmağa başlayır. Əlbəttə, yenə də əsas yük bu funksiyanı yerinə yetirməli qurumun, yəni Xarici İşlər Nazirliyinin üzərindədir. Amma Azərbaycan parlamentinin, ölkənin yumşaq güc və təsir potensialının formalaşmasında mühüm rol oynayan Heydər Əliyev Fondunun, Diasporla İş üzrə Dövlət Komitəsinin, QHT-lərin və son dövrlərdə ombudsman institutunun da bu yöndə diqqətçəkici fəaliyyətlərini görməmək mümkün deyil.

Ədalət naminə demək lazımdır ki, insan hüquqları müvəkkili institutu yarandığı gündən beynəlxalq müstəvidə də yüz minlərcə azərbaycanlı qaçqın və köçkünlərin haqlarının qorunması məsələsi qaldırılıb. Amma indi biz proaktiv və sistemli fəaliyyət görürük. Bu sistemli fəaliyyət parlament diplomatiyasında olduğu kimi, özünü Ermənistandan deportasiya edilənlərin vətənə dönüş hüquqlarının beynəlxalq platformalarda gündəmə gətirilməsində də göstərir.

Ombudsmanın insan haqları məsələsini inhisarda saxlamağa çalışan və geosiyasi təzyiq alətinə çevirən “Amnesty International”, “Human Rights

Watch" kimi qurumların Qarabağı özləri tərk edənləri diqqət mərkəzində saxladıqları halda, azərbaycanlıların problemlərinə biganə yanaşmalarının sərt tənqidini alqışlayıram.

Əlbəttə, sual yaranır ki, nədən bu beynəlxalq qurumlar sayca daha az olanların haqlarının pozulduğundan, ona yol verilmədikdə belə bəhs etdikləri halda, onlardan qat-qat çox, yüz minlərcə insanın hüquqlarının pozulmasına göz yumurlar, bu ayrı-seçkilik nə ilə bağlıdır? Əgər onlar üçün kəmiyyət önəmli deyilsə, "keyfiyyət" faktoruna üstünlük verirlərsə, onda etiraf etsinlər ki, insan haqları deyil, irqçi təşkilatlardırlar.

Sonda, ombudsmanın bir sıra təklifləri var ki, mən onların maliyyə yükü olmayanların, yaxud da az olanların tezliklə diqqətə alınıb reallaşmasını dəstəklədiyimi bildirirəm. Onu da bildirirəm ki, insan haqlarının da beynəlxalq hüquq kimi ayaqlar altına salınıb tapdandığı, raket zərbələri ilə göyə sovrulduğu indiki dövrdə mənim dövlətimin hər iki məsələdə prinsipial mövqe tutması, minlərcə insanın pozulmuş təməl haqlarını bərpa etməsi, yəni yenə də hər hansı beynəlxalq dəstək olmadan onları öz yurdlarına qaytarması qürurvericidir. Əsas budur ki, Azərbaycan xalqı onun hüquqlarını məhz öz dövlətinin, onun uyğun qurumlarının qoruduğunu indi heç vaxt olmadığı qədər daha aydın görür. Burada da Prezidentimiz cənab İlham Əliyevin müstəsna xidməti var. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sahib müəllim.

Hörmətli həmkarlar, təklif var idi, səsə qoyaq. Mən indi məsələni səsə qoyacağam. Mən də düşünürəm ki, kifayət qədər müzakirə olundu və İnsan hüquqları üzrə müvəkkilin məruzəsi haqqında, ümumiyyətlə, müsbət fikirlər səsləndi. Bəzi təkliflər var idi. Mən əminəm ki, Səbinə xanım və ümumiyyətlə, Ombudsman Aparatı bu təkliflərə də diqqət yetirəcəklər.

Səbinə xanım, sözünüz var? Buyurun.

**Səbinə Əliyeva.** Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, ilk növbədə, sizə ombudsmanın illik məruzəsi ilə diqqətlə tanış olub səsləndirdiyiniz rəy və təkliflərə görə öz təşəkkürümü bildirirəm. Gələcək fəaliyyətimizdə səslənən rəy və təkliflər nəzərə alınacaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Qərarı qəbul edildi.

Səbinə xanım, biz Sizə təşəkkür edirik və gələcək işlərinizdə də uğurlar arzulayırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz isə növbəti məsələlərə keçirik. Növbəti 5 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır. 2-ci məsələ Uşaq hüquqları haqqında qanun layihəsidir, 3-cü məsələ isə Mülki Prosessual Məcəllədə və digər 2 məcəllədə, “Gənclər siyasəti haqqında” Qanunda və daha 8 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, bu qanun layihələrinə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Mən indi hörmətli Hicran xanımdan xahiş edəcəyəm, hər iki qanun layihəsi haqqında məlumat versin. Buyurun, Hicran xanım.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə, mən ikinci oxunuş üzrə layihə ilə bağlı Milli Məclisin plenar iclasında çıxış edən və təklif verən millət vəkilləri Vüqar Bayramova, Hikmət Məmmədova, Aydın Mirzəzadəyə, Vüqar İskəndərova, Mehriban Vəliyevaya, Tənzilə Rüstəmxanlıya, Pərvanə Vəliyevaya, Məlahət İbrahimqızına təşəkkür edirəm.

Hörmətli xanım sədr, Sizin tapşırığınızla hər bir təklif üzrə müvafiq qanunvericilik subyektləri ilə işçi qaydada ətraflı şəkildə müzakirələr aparıldı. 3 təklif nəzərə alınmaqla, təqdim olunan layihəyə bəzi dəyişikliklər əlavə olundu. Həmin dəyişiklikləri diqqətinizə təqdim etmək istərdim.

Millət vəkili hörmətli Mehriban Vəliyevanın təklifinə əsasən qanunun 4.1.3-cü maddəsinə “inklüzivlik” sözü əlavə edilir və belə redaksiya olunur: “Uşaqlara qarşı ayrı-seçkiliyə yol verilməməsi, bütün uşaqlar üçün bərabər imkanların və inklüzivliyin təmin edilməsi”.

Millət vəkili hörmətli Vüqar Bayramovun təkliflərinə əsasən qanunun 4.1.5-ci maddəsinə “əxlaqi dəyərlərə” sözləri əlavə edilir və belə redaksiya olunur: “Uşaqların fiziki, əqli, mənəvi və əxlaqi inkişafı, onların vətənpərvərlik, vətəndaşlıq, sülhpərvərlik və əxlaqi dəyərlərə, milli adət və ənənələrə hörmət ruhunda tərbiyə olunması”.

Qanunun 5.1.2-ci maddəsinə “dövlət büdcəsinin proqnozlaşdırılmasında” sözləri əlavə edilir. Belə redaksiyada verilir: “Uşaqların mənafelərinin üstünlüyü prinsipindən irəli gələrək dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, dövlət büdcəsinin proqnozlaşdırılmasında nəzərə alınması”.

Qanun layihəsi cari ilin 27 fevral tarixində komitə iclasında üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

Hörmətli sədr, digər qanun layihəsi ilə bağlı ikinci oxunuşda əlavə rəy və təklif daxil olmayıb. Cari ilin 27 fevral tarixində komitə iclasında üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım.

Hörmətli həmkarlar, bu iki qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılmışdır. Zahid müəllim, xahiş edirəm, Siz hər iki qanun layihəsi haqqında məlumat verin, rəy bildirin.

**Zahid Oruc.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hər iki layihə ilə bağlı İnsan hüquqları komitəsinin rəyi müsbətdir. Xahiş olunur, nəzərə alınsın. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, 3-cü məsələyə 4 komitə də baxmışdır. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Hörmətli Əli Hüseynli, rəy bildirin. Buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr, profilə uyğun olaraq, bizim komitənin də uyğunluq xarakterli layihələrlə bağlı rəyi müsbətdir. Xahiş edirəm, nəzərə alasınız. Çox sağ olun.

**Sədrlik edən.** Gənclər və idman komitəsinin rəyini bildirmək üçün, Şahin müəllim, mən Sizə söz verirəm. Buyurun.

**Şahin İsmayılov,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar, müzakirə olunan qanun layihəsi ilə bağlı komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən sözü hörmətli Əziz Ələkbərova verirəm. Buyurun.

**Əziz Ələkbərov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, müvafiq qanunlarda dəyişiklik edilməsi barədə təklif olunan qanun layihəsinə üçüncü oxunuşda Əmək və sosial siyasət komitəsində baxılmışdır, əlavə qeyd və təkliflər olmamışdır və plenar iclasa təqdim edilməsi qərarı alınmışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, komitəmizin bu layihə ilə bağlı üçüncü oxunuşda rəyi müsbətdir. Nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Heç kimin sualı yoxdur və mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

**Səsvermənin nəticələri** (saat 12.18 dəq.)

| | |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Uşaq hüquqları haqqında qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə xahiş edirəm, 3-cü məsələdə olan qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Gündəliyin 4-cü məsələsinə keçirik. Bu məsələ Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, xahiş edirəm, məlumat verin. Buyurun.

**Əli Hüseynli.** Hörmətli sədr, bu layihə ilə bağlı ikinci oxunuşda həmkarlarımla fikir mübadiləsi aparılmışdır. Qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsini səsə qoyuram. Buyurun, üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələyə keçirik. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamran Bayramova söz verirəm. Kamran müəllim, buyurun.

**Kamran Bayramov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun. Hörmətli xanım sədr, dəyərli həmkarlar, qanun layihəsi haqqında birinci və ikinci oxunuşlar zamanı ətraflı məlumat verilmişdir. İkinci oxunuş zamanı hər hansı təklif daxil olmadığından qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Sağ olun.

Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz “Avtomobil nəqliyyatı haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Komitə sədrinin müavini hörmətli Azər Badamova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Qanun layihəsinin birinci və ikinci oxunuşları zamanı əlavə təkliflər səsləndirilməmişdir. Qanun layihəsini olduğu kimi üçüncü oxunuşda səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələlərə keçirik. 7-ci məsələ Əmək Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, “Müdafiə haqqında” və digər 6 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə uyğunlaşdırma xarakteri daşıyır. Ona görə də bir oxunuşda qəbul

ediləcəkdir. Bildiyiniz kimi, bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbidir.

Qanun layihəsinə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Arzu müəllim Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun, bizə məlumat verin.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Bu qanun layihəsində Azərbaycan Respublikasının qanunvericilik sisteminin təkmilləşdirilməsi və mövcud idarəetmə strukturuna uyğunlaşdırılması məqsədi ilə qeyd olunan qanunlarda bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Komitənin profilinə uyğun olaraq, məlumat verim ki, bir neçə qanunda və əsasnamədə dəyişiklik edilməsi nəzərdə tutulub. Belə ki, 2011-ci il 23 dekabr tarixli “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsinə qədər hərbi komissarlıqlar bilavasitə Müdafiə Nazirliyinin strukturunda fəaliyyət göstərirdi. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsi, müvafiq sahədə idarəetmə strukturlarının təkmilləşdirilməsi, qanunun müasir tələblərə uyğun qurulması məqsədi ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Respublikasının Hərbi Komissarlığı, Naxçıvan Muxtar Respublikasının Hərbi Komissarlığı, rayon, şəhər, şəhərdə rayon hərbi komissarlıqları ləğv edilmiş və onların əsasında 2012-ci il fevralın 13-də Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılmışdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Müdafiə Nazirliyinin tabeliyində olmayan müstəqil mərkəzi icra hakimiyyəti orqanıdır. Bu xidmətin fəaliyyəti və maddi-texniki təchizatı qaydası cənab Prezidentin müvafiq fərmanları, həmçinin "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında" Əsasnamə ilə tənzimlənir. Ona görə də bu səlahiyyətlərin Nazirlər Kabinetinə aid olması normasını əks etdirən abzasın "Müdafiə haqqında" Qanunun 6-cı maddəsindən çıxarılması təklif edilir. Eyni zamanda, layihədə göstərilən digər qanunlardan da "hərbi komissarlıq" ifadəsinin çıxarılması təklif edilir. Ümid edirik ki, qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi mövcud sahədə tənzimləmənin daha dəqiq və birmənalı tətbiqinə imkan yaradacaqdır.

Hörmətli xanım sədr, təklif edilən dəyişikliklər, ümumilikdə, uyğunlaşdırma xarakteri daşıyır. Sizin də qeyd etdiyiniz kimi, habelə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələblərindən irəli gələrək qanunvericilik texnikası baxımından bəzi ifadələrin dəqiqləşdirilməsi təklif edilir.

Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib. Müzakirələrdə Müdafiə Nazirliyinin və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hüquq idarələrinin rəisləri, Milli Məclisin müvafiq şöbəsinin rəhbəri iştirak etmiş və plenar iclasa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Arzu müəllim, çox sağ olun, ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 3 komitədə baxılmışdır. Birinci komitə Əmək və sosial siyasət komitəsidir. Komitənin rəyini bildirmək

üçün, Əziz müəllim, mən yenə də Sizə söz verirəm. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Əziz Ələkbərov.** Çox sağ olun. Hörmətli xanım sədr, müzakirəyə təqdim olunan qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə Əmək və sosial siyasət komitəsinin iclasında da baxılmış, komitə üzvləri tərəfindən heç bir qeyd və təklif olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İkinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Əli müəllim, özünüz məlumat verəcəksiniz. Rəyi bildirin, buyurun.

**Əli Hüseynli.** Hörmətli sədr, artıq geniş məlumat verildi. Bizim komitə isə profilə uyğun olaraq, “Polis haqqında” Qanunda və Cəzaların İcrası Məcəlləsində uyğunlaşdırma xarakterli dəyişikliklərə müsbət rəy vermişdir.

**Sədrlik edən.** Çox sağ olun.

Üçüncü komitə Gənclər və idman komitəsidir. Komitənin sədri hörmətli Şahin müəllimə söz verirəm. Şahin müəllim, buyurun.

**Şahın İsmayılov.** Çox sağ olun. Hörmətli xanım sədr, artıq Sizin də qeyd etdiyiniz kimi, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Biz komitələrin rəylərini eşitdik. Yazılan yoxdur. Heç kim müzakirəyə yazılmır. Ona görə də mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə çatdıq. 8-ci məsələmiz “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuş üçün təqdim edilir. Qanun layihəsinə yenə də Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Arzu müəllim, mən yenə də Sizə söz verirəm. Qanun layihəsi haqqında ikinci oxunuşda məlumat verin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, media nümayəndələri, təqdim edilən qanun layihəsinin əsas məqsədi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən qadın hərbi qulluqçuların xidmətə uyğunlaşma prosesinin daha səmərəli təşkili və bu sahədə mövcud praktiki çətinliklərin aradan qaldırılmasıdır.

Qüvvədə olan “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddəsinə əsasən müddətdən artıq hərbi xidmət hərbi qulluqçuları üçün ilkin bağlaşma müddəti həqiqi hərbi xidmətdən, ehtiyatdan daxil olanlar və qadınlar üçün əvvəlki qanunda 3 il müəyyən edilmişdir. Həmin müddəa “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin 12-ci maddəsinin “b” bəndində nəzərdə tutulmuşdur.

Qadınlarla dərhal 3 illik ilkin bağlaşmanın bağlanması onların uyğunlaşma dövrünü keçmədən uzunmüddətli öhdəlik götürməsinə səbəb olur ki, bu da sonradan, əsasən, ailə vəziyyəti, digər obyektiv və subyektiv səbəblərlə hərbi xidmətdən vaxtından əvvəl ehtiyata buraxılmaları ilə nəticələnir və kadr sabitliyinə mənfi təsir göstərir.

Qeyd olunanları nəzərə alaraq, qanun layihəsinə qadınlarla bağlanan ilkin bağlaşma müddətinin 3 ildən 6 ayadək azaldılmasını nəzərdə tutan müddəanın əlavə edilməsi təklif olunur.

Layihə birinci oxunuşda müzakirə olunub. Müzakirədə iştirak edən həmkarlara, xanım sədr, dəstəyə görə Sizə təşəkkürümü bildirirəm.

Layihə ikinci oxunuşda Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə olunub və plenar iclasa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur. Qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. İndi mən səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Səsverməyə keçirik. Hörmətli həmkarlar, bu qanun layihəsində 2 maddə var. Mən 1-ci maddəni səsə qoyuram. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

## *EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ*

## ***3 mart 2026-cı il***

**Asif Əsgərov.** Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2025-ci il üzrə təqdim etdiyi illik məruzə ilə bağlı fikirlərimi bölüşərkən, ilk növbədə, qeyd etmək istəyirəm ki, məruzə öz məzmununun dərinliyi, analitik yanaşması və sistemli strukturuna görə xüsusi əhəmiyyət kəsb edir. Sənəd təkcə hesabat xarakteri daşımır, eyni zamanda, ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərini, institusional inkişaf dinamikasını və mövcud çağırışlara verilən adekvat cavab mexanizmlərini əks etdirən fundamental strateji sənəd kimi çıxış edir. Məruzənin dili peşəkardır, faktoloji bazası genişdir, yanaşma isə balanslı və məsuliyyətlidir. Xüsusi ilə mürəkkəb regional və beynəlxalq şərait fonunda insan hüquqlarının müdafiəsinin institusional əsaslarla davam etdirilməsi təqdirəlayiqdir.

Təqdim olunan məruzə insan hüquqlarının qorunması sahəsində əldə edilmiş nailiyyətləri obyektiv şəkildə təhlil etməklə yanaşı, mövcud problemləri də açıq şəkildə ortaya qoyur, hüquqi və institusional təkmilləşdirmə istiqamətində əsaslandırılmış təkliflər irəli sürür. Xüsusi ilə rəqəmsal transformasiya, süni intellektin tətbiqi, postmünaqişə dövründə hüquqların bərpası və həssas əhali qruplarının müdafiəsi kimi aktual istiqamətlərin sistemli şəkildə əhatə olunması məruzənin strateji baxımdan yetkin və çoxşaxəli sənəd olduğunu göstərir.

Müasir dövrdə insan hüquqları anlayışı təkcə hüquqi kateqoriya deyil, eyni zamanda, geosiyasi təsir alətinə çevrilmişdir. Təəssüf ki, beynəlxalq münasibətlər sistemində bu sahədə ikili standartların mövcudluğu danılmaz faktdır. Lakin bütün bu mürəkkəb fonun qarşısında Azərbaycanın mövqeyi

aydındır: insan hüquqları dövlət suverenliyi, konstitusion quruluş və milli təhlükəsizlik prinsipləri ilə vəhdətdə təmin edilməlidir. Məruzədə də bu balansın qorunması açıq şəkildə hiss olunur. Bu isə təsadüfi deyil, düşünülmüş yanaşmanın nəticəsidir.

Postmünaqişə dövründə azad edilmiş ərazilərdə hüquq sisteminin bərpası, keçmiş məcburi köçkünlərin sosial, mülki və təhsil hüquqlarının təmin olunması istiqamətində görülən işlərin məruzədə geniş yer alması xüsusilə əhəmiyyətlidir. Bu proses, sadəcə, inzibati idarəetmə məsələsi deyil, insan ləyaqətinin və ədalət prinsipinin bərpasıdır. Artıq uzun illər ərzində həllini gözləyən problemlərin mərhələli şəkildə aradan qalxması insan hüquqları sahəsində keyfiyyət dəyişiminin göstəricisidir.

Eyni zamanda, vətəndaş müraciətlərinin təhlili göstərir ki, institut cəmiyyətin nəbzini real şəkildə hiss edir. Şikayətlərin tematik bölgüsü, onların həlli mexanizmləri və preventiv tədbirlər istiqamətində atılan addımlar Ombudsman Aparatının daha çevik və təsirli fəaliyyət modelinə keçdiyini göstərir. Xüsusi ilə regionlarda qəbul mexanizmlərinin genişləndirilməsi və operativ reaksiya imkanlarının artırılması müsbət dinamikanı təsdiqləyir.

Həssas əhali qruplarının hüquqlarının effektiv müdafiəsinin təmin edilməsi məqsədi ilə müstəqil monitorinq mexanizmi çərçivəsində uşaqların, qadınların, ahıl şəxslərin və əlilliyi olan şəxslərin hüquqlarının təmini kompleks şəkildə qiymətləndirilmişdir. Aparılmış monitorinqlər nəticəsində müəyyən edilmiş problemlər üzrə aidiyyəti qurumlara tövsiyələr təqdim olunmuş, sistemli yanaşma əsasında həll mexanizmlərinin formalaşdırılması təşviq edilmişdir. İnsan hüquqlarına həsr olunmuş müxtəlif maarifləndirici layihələr həyata keçirilmiş, xüsusi ilə həssas

qrupların hüquqları ilə bağlı ictimai məlumatlılığın artırılmasına yönəlmiş tədbirlər geniş vüsət almışdır.

Bununla yanaşı, hesab edirəm ki, qarşıdakı mərhələdə bir neçə istiqamətdə diqqətin daha da artırılması faydalı ola bilər. Belə ki, rəqəmsal hüquqlar artıq ayrıca prioritet sahəyə çevrilməkdədir. Süni intellekt, şəxsi məlumatların qorunması, kibertəhlükəsizlik sahəsində vətəndaş hüquqlarının müdafiəsi gələcək dövrün əsas çağırışlarındandır. Hesab edirəm ki, bu sahədə ayrıca tematik bölmənin hazırlanması və qanunvericilik təşəbbüslərinin irəli sürülməsi məqsədəuyğun olar.

Penitensiar müəssisələrdə monitorinq mexanizmlərinin təkmilləşdirilməsi, alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi, sosial reinteqrasiyanın gücləndirilməsi də insan hüquqlarının müasir anlayışı baxımından vacib istiqamətlərdəndir. Cəza siyasətində humanist yanaşmanın gücləndirilməsi cəmiyyətin, bütövlükdə, sağlamlaşmasına xidmət edir.

Təhsil hüququ ilə bağlı bəzi regionlarda siniflərin birləşdirilməsi, müəllim çatışmazlığı və infrastruktur problemləri kimi məsələlər insan hüquqları kontekstində daha dərindən araşdırılmalıdır. Təhsilin əlçatanlığı ilə yanaşı, keyfiyyət komponenti də fundamental hüquq kimi qiymətləndirilməlidir. Bir şagird üçün belə ayrıca tədris imkanının qorunması dövlətin sosial məsuliyyət fəlsəfəsinin göstəricisidir.

İnsan hüquqları anlayışı hüquq və azadlıqlarla yanaşı, məsuliyyəti də ehtiva edir. Konstitusiyamızda da açıq şəkildə qeyd olunur ki, hüquqlardan sui-istifadəyə yol verilmir. Bu prinsip xüsusi ilə informasiya mühitində, sosial şəbəkələrdə, ictimai davranışda öz əksini tapmalıdır. Dövlətin hüquq mühafizə orqanlarını sistemli şəkildə hədəf alan, məhkəmə hakimiyyətinə

təzyiq görüntüsü yaratmağa çalışan kampaniyalar da insan hüquqları pərdəsi altında legitimləşdirilə bilməz.

Bununla belə, konstruktiv tənqid və vətəndaş fəallığı demokratik inkişafın ayrılmaz hissəsidir və bu balansın qorunması məruzədə öz əksini tapır.

Ümumilikdə, 2025-ci il üzrə təqdim olunan məruzə göstərir ki, insan hüquqları sahəsində fəaliyyət sistemli, ardıcıl və dövlət maraqları ilə uzlaşdırılmış şəkildə davam etdirilir. Bu baxımdan məruzəni yüksək qiymətləndirir və hesab edirəm ki, qeyd olunan təkliflərin nəzərə alınması bu istiqamətdə effektivliyini daha da artıracaqdır.

**Azər Allahverənov.** Bu gün biz Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci il üzrə məruzəsini dinlədik. Məlumat üçün bildirmək istəyirəm ki, Milli Məclisin İnsan hüquqları komitəsinin 2026-cı il 27 fevral tarixli iclasında hazırkı məruzə ilə bağlı təşkil olunan müzakirədə mən də iştirak etdim, vacib əhəmiyyət kəsb edən bu sənədin müxtəlif aspektləri ilə bağlı fikirlərimi bildirdim və marağıma səbəb olan hissələri ilə əlaqədar suallarımı verdim.

Hazırda mən ombudsmanın 2025-ci il üzrə məruzəsi ilə bağlı fikirlərimi daha çox konseptual şəkildə bildirmək və bu əsasda bir sıra təkliflərimi dilə gətirmək istəyirəm. İlk əvvəl qeyd edim ki, peşəkar şəkildə hazırlanmış və ötən ilin hesabatı ilə müqayisədə yeni məzmunla zənginləşdirilmiş hazırkı məruzənin strukturu kifayət qədər əhatəlidir. Təqdirəlayiq haldır ki, məruzədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmini, müdafiəsi ilə yanaşı, bu sahədə beynəlxalq əməkdaşlığa və elmi-analitik fəaliyyətə də yer ayrılır və bu da sənədin elmi-siyasi çəkisini artırır. Burada yer alan praktiki keyslər və statistik göstəricilər onu zənginləşdirməklə

yanaşı, həm də bu elementlər əsasında həm kəmiyyət, həm də keyfiyyət ölçülərinin müqayisəli təhlilini aparmağa imkan verir. Fürsətdən istifadə edib onun hazırlanmasında əməyi keçən hər bir şəxsə öz təşəkkürümü bildirirəm.

Məruzədə qeyd olunur ki, 2025-ci ildə edilən müraciətlərin sayı ötən illə müqayisədə kəskin şəkildə artmışdır. Belə ki, 2024-cü ildə müraciətlərin sayı 29371 olduğu halda, 2025-ci ildə edilən müraciətlərin sayı 42685 olmuşdur və bu da 44 faiz artım deməkdir. Hesab edirəm, müraciətlərdə adları keçən aidiyyəti dövlət strukturları bu məqama diqqət yetirməklə, həmin istiqamətlərdə insan hüquqlarının təmin olunması ilə bağlı zəruri addımlar atmalıdırlar.

Sənədin önəmli hissəsi təklif və tövsiyələr bölməsidir. Burada yer alan 94 təklifdən 27 təklif 2024-cü ilin məruzəsində də qeyd olunmuşdur. Belə bir fikir formalaşır ki, əgər həmin təkliflər yeni hesabatda da yer alırsa, deməli, aktuallığı açıq-aşkardır və onlara xüsusi diqqət vermək lazımdır. Misal üçün, aliment fondunun yaradılması təklifi. Yadımdadır ki, ötən il mən də bu təklifi fəal surətdə dəstəkləmişdim və sosial mediada bu məsələ pozitiv qarşılanmışdır. Eyni fikri həm də təkrar olunan digər məsələlərlə bağlı bildirmək olar.

Məruzənin 1.3-cü bölməsi uşaq hüquqlarının müdafiəsi ilə əlaqədardır. Burada qeyd olunur ki, uşaq hüquqlarının təmini, müdafiəsi və təbliği uşaqların sağlamlığı, inkişafı, rifahı və onların xoşbəxt gələcəyi baxımından vacib əhəmiyyət kəsb edir. Uşaqların sağlam mühitdə böyüməsi bu sahədə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir. Lakin təmsil etdiyim seçki dairəsinin əhatə etdiyi Zabrat, Kürdəxanı, Pirşağı və Nardaran qəsəbələrində uşaqların istifadəsi üçün nəzərdə tutulan idman meydançaları yoxdur ki, bu da onların fiziki cəhətdən sağlam inkişaf

imkanlarını məhdudlaşdırır. Məruzədə bu kimi məsələlərə xüsusi diqqətin ayrılmasını və aidiyyəti strukturlar qarşısında təkliflərlə çıxış etməyi vacib sayıram.

Məruzənin 1.2-ci bölməsində iqtisadi, sosial və mədəni hüquqların müdafiəsindən bəhs olunur. Təəssüf ki, burada mədəni hüquqların təmin olunması üçün zəruri infrastruktur potensialına diqqət verilməyib. Məsələn, yenə də təmsil etdiyim Zabrat və Pirşağı qəsəbələrində bir neçə onillik bundan qabaq inşa edilmiş və bu gün əsaslı təmirə ehtiyacı olan mədəniyyət evləri yetərincə funksional deyil ki, bu məsələyə diqqət yetirilməlidir. Diqqət yetirilməli olan digər məsələ Zabrat sakinlərinin asudə vaxtlarının keçirilməsi üçün istirahət parkının olmamasıdır. Hesab edirəm, mədəni hüquqların təmin olunması baxımından hər iki məsələ olduqca vacibdir.

Məruzənin 3-cü fəslində geniş şəkildə insan hüquqları sahəsində həyata keçirilən maarifləndirmə tədbirlərindən və bu prosesdə tərəfdaşların iştirakından bəhs olunur. Bu fəaliyyətin çox vacib olduğunu bir daha vurğulayaraq ölkənin şəhər və rayonlarında ombudsmanın xətti ilə keçirilən bu kimi tədbirlərə həm də həmin ərazilərdən seçilmiş millət vəkillərinin də cəlb olunmasını təklif edirəm. Belə bir yanaşma tədbirlər zamanı vətəndaşlar tərəfindən qaldırılan məsələlərlə bağlı sonrakı mərhələdə başlanılacaq müdafiə prosesinin effektivliyini artıracaqdır.

Nəhayət, qaldırmaq istədiyim sonuncu məsələ ölkə xaricində yaşayan Azərbaycan Resublikasının vətəndaşlarına münasibətdə baş verən hüquq pozuntularıdır. Məruzədə qeyd olunur ki, bu kimi məsələlərlə bağlı sosial media üzərindən yayılan məlumatlar ombudsman tərəfindən təhlil edilmiş, bununla bağlı hazırlanmış mötəbər və əsaslandırılmış rəsmi mövqelər həm ölkədaxili, həm də beynəlxalq informasiya resursları vasitəsi ilə geniş

auditoriyanın diqqətinə çatdırılmışdır. Təqdirəlayiq haldır ki, ombudsman bu kimi məsələlərə dərhal reaksiya verir. Eyni zamanda, təklif edirəm ki, ölkə xaricində yaşayan həmvətənlərimizin bu kimi hallarla üzləşməsinin qarşısını ala biləcək preventiv mexanizmlər yaradılsın. Bu məsələdə diplomatik strukturların, diaspor fəaliyyəti ilə məşğul olan dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının yaxın iştirakı da arzuolunandır. Çünki onların bu prosesə cəlb olunması yaradıla biləcək preventiv mexanizmin həm effektivliyini artırar, həm də onun institusional dayanıqlılığını gücləndirər.

**Ceyhun Məmmədov.** Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev **“**Uşaqların rəqəmsal mühitdə zərərli təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında**”** çox mühüm bir Sərəncam imzaladı. Bu, bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uşaqların sağlam mühitdə böyüməsinə xüsusi önəm verir.

Son dövrlər rəqəmsal mühit həyatımızın ayrılmaz hissəsinə çevrilib. Sosial şəbəkələr artıq, sadəcə, ünsiyyət vasitəsi deyil, burada düşüncələr formalaşır, təsirlər yaranır, dəyərlər dəyişir. Xüsusi ilə uşaqların bu mühitə çox erkən yaşda daxil olması məsələyə ciddi yanaşma tələb edirdi.

Uşaqların rəqəmsal təhlükəsizliyi artıq seçim deyil, zərurətdir. Çünki internet mühiti həm imkanlar yaradır, həm də risklər daşıyır. Bir tərəfdən, uşaqlar informasiya əldə edir, öz bacarıqlarını inkişaf etdirir, digər tərəfdən isə, zərərli məzmun, psixoloji təzyiq və müxtəlif manipulyativ təsirlərlə qarşılaşırlar.

Sərəncamdan da göründüyü kimi, burada əsas məsələ yalnız məhdudiyyət qoymaq deyil. Əsas məqsəd uşaqları rəqəmsal mühitdən uzaqlaşdırmaq deyil, onları bu mühitdə təhlükəsiz və məsuliyyətli şəkildə davranmağa hazırlamaqdır. Ona görə təhsil proqramlarında rəqəmsal

savadlılıq və kibertəhlükəsizlik mövzularının yer alması çox vacibdir. Uşaq bilməlidir ki, hansı məlumatı paylaşmaq olar, hansını olmaz, hansı xəbərə inanmaq lazımdır, hansına deyil.

Məktəblərdə mobil telefon istifadəsi ilə bağlı qaydaların müəyyənləşdirilməsi də balans tələb edən məsələdir. Texnologiya düzgün istifadə olunanda faydalıdır, amma nəzarətsiz qalanda diqqət yayındırır və asılılıq yarada bilir. Ona görə də həm nizam-intizam, həm də təhlükəsizlik qorunmalıdır.

Valideynlərin rolu burada xüsusi əhəmiyyət daşıyır. Uşağın əlindən telefonu almaq asandır, amma onunla danışmaq, izah etmək və doğru istiqamətləndirmək daha vacibdir. Heç şübhəsiz ki, rəqəmsal mühitdə sağlam davranış ailədən başlayır.

Sonda bir daha qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" Sərəncam, eləcə də bu sahədə atılan digər addımlar gələcək nəsillərin daha sağlam düşüncəli və daha məsuliyyətli formalaşmasına xidmət edəcək. Uşaqlarımızın təhlükəsizliyi və rifahı hər birimizin ortaq məsuliyyətidir və bu istiqamətdə ardıcıl siyasət cəmiyyətimizin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir.

**Əli Hüseynli.** Bu gün müzakirə etdiyimiz ombudsmanın 2025-ci il üçün hesabatı insan hüquq və azadlıqlarının təmin olunması sahəsində ölkəmizdə görülən işlərin qiymətləndirilməsi baxımından vacib əhəmiyyət daşıyır. Ombudsman institutu vətəndaşlarla dövlət qurumları arasında körpü rolunu oynayaraq hüquqların müdafiəsində mühüm mexanizm kimi çıxış edir.

Hesabatdan göründüyü kimi, il ərzində vətəndaş müraciətlərinin sayı kifayət qədər yüksək olmuşdur. Bu müraciətlər, əsasən, sosial təminat,

əmək hüquqları, məhkəmə qərarlarının icrası, səhiyyə və digər sahələri əhatə etmişdir. Bu fakt, bir tərəfdən, vətəndaşların instituta artan etimadını göstərirsə, digər tərəfdən, müəyyən sistemli problemlərin hələ də mövcud olduğunu ortaya qoyur.

Hesabatda qeyd edilən statistik göstəricilər görülən işlərin miqyasını nümayiş etdirir. Xüsusi ilə həssas əhali qruplarının – şəhid ailələrinin, qazilərin, əlilliyi olan şəxslərin, aztəminatlı ailələrin hüquqlarının müdafiəsi istiqamətində aparılan işlər diqqətəlayiqdir. Bununla yanaşı, regionlarda qəbul günlərinin təşkili və maarifləndirmə tədbirlərinin keçirilməsi ombudsman institutunun əlçatanlığını artırmışdır.

Hesab edirəm ki, bəzi sahələrdə preventiv mexanizmlərin gücləndirilməsinə ehtiyac vardır. Dövlət orqanları tərəfindən vətəndaş müraciətlərinə vaxtında və əsaslandırılmış cavab verilməsi, məhkəmə qərarlarının icrasında ləngimələrin aradan qaldırılması və sosial sahədə şəffaflığın artırılması prioritet olaraq qalmalıdır.

Ombudsmanın tövsiyələrinin icra səviyyəsi xüsusi nəzarətdə saxlanılmalı, qurumlararası koordinasiya daha da təkmilləşdirilməlidir. Çünki insan hüquqlarının qorunması yalnız bir institutun deyil, bütövlükdə, dövlət mexanizminin vəzifəsidir.

Qeyd etmək istəyirəm ki, 2025-ci il üzrə ombudsmanın illik hesabatı təkcə görülən işlərin xülasəsi deyil, eyni zamanda, gələcək fəaliyyət üçün yol xəritəsidir. Qarşıda duran əsas məqsəd vətəndaş məmnunluğunu artırmaq, ədalət və hüququn aliliyini daha da möhkəmləndirməkdir.

**Jalə Əliyeva.** Son illərdə yüksək rəqəmsal texnologiyaların və süni intellektin sürətli inkişafı qlobal siyasətin strukturunu, dövlət idarəetməsini və milli təhlükəsizlik anlayışını köklü şəkildə dəyişməkdədir. Artıq kibercinayətkarlıq və kiberhücumlar təkcə informasiya təhlükəsi olmaqla

qalmır, həm də hərbi və geosiyasi alətin bir parçasına çevrilməkdədir. Günümüzdə istər regionda, istərsə də dünyada baş verən proseslər göstərir ki, rəqəmsal və süni intellekt texnologiyaları münaqişələrin gedişinə birbaşa təsir göstərir.

Belə bir mürəkkəb və həssas mərhələdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət Azərbaycanın rəqəmsal təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsinə xidmət edir. Dövlət başçısının fərmanı ilə yaradılan Rəqəmsal İnkişaf Şurası milli informasiya sistemlərinin mühafizəsi, kibertəhlükəsizlik risklərinin minimuma endirilməsi və rəqəmsal suverenliyin qorunması baxımından mühüm və vaxtında atılmış addımdır.

Şuraya rəhbərliyin Birinci vitse-prezident xanım Mehriban Əliyevaya həvalə olunması isə bu istiqamətdə sistemli və koordinasiyalı fəaliyyətin təmin olunmasına xidmət edəcək. Mehriban xanımın sosial və humanitar sahədə, eyni zamanda, idarəetmə sahəsindəki təcrübəsi rəqəmsal transformasiyanın insan amili ilə uzlaşdırılmasına, şəffaf və effektiv modelin qurulmasına imkan yaradır. Bu, Azərbaycanın rəqəmsal müstəqilliyinin və milli təhlükəsizlik mexanizmlərinin daha da gücləndirilməsi deməkdir.

Digər mühüm istiqamət isə uşaqların rəqəmsal mühitdə qorunması ilə bağlı olaraq keçdiyimiz günlərdə verilən Prezident Sərəncamıdır. “Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında” sənəd strateji bir addım olaraq sosial məsuliyyət istiqamətində həyata keçirilən dövlət siyasətinin davamıdır. Bu gün internet həm imkanlar, həm də risklər məkanıdır. Kiberzorakılıq, zərərli kontent, aqressiv ideologiyalar və psixoloji asılılıq kimi təhlükələr gələcək nəslin dünyagörüşünə təsir göstərir.

Bu baxımdan, Sərəncam preventiv yanaşmanı əsas götürür. Məqsəd interneti məhdudlaşdırmaq deyil, təhlükəsiz və sağlam rəqəmsal mühit

formalaşdırmaqdır. Ən əsası isə bu sərəncam dövlət–ailə–cəmiyyət əməkdaşlığını gücləndirir, rəqəmsal təhlükəsizlik isə inzibati tədbirlərlə yanaşı, ictimai məsuliyyət və mədəniyyətin formalaşdırılmasını tələb edir.

Beləliklə, hər iki sənəd – həm Rəqəmsal İnkişaf Şurasının yaradılması haqqında Fərman, həm də uşaqların rəqəmsal mühitdə qorunmasına dair Sərəncam Azərbaycanın milli təhlükəsizliyinin, sosial dayanıqlılığının və milli-mənəvi dəyərlərin qorunmasına yönəlmiş vahid strateji xəttin möhkəmləndirilməsini təmin edən strateji qərardır.

Əminliklə deməliyik ki, rəqəmsal suverenliyini qoruyan, gələcək nəslini təhlükəsiz mühitdə yetişdirən Azərbaycan dövlətinin atdığı hər bir addım ölkəmizin sabit və güclü gələcəyinin etibarlı təminatıdır.

**Kamal Cəfərov.** Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci il üzrə illik məruzəsini təhlil edərək bəzi mühüm məqamları diqqətinizə çatdırmaq istərdim. Bu məruzə ölkəmizdə insan hüquqlarının mövcud vəziyyətini əks etdirən geniş miqyaslı bir güzgüdür. Məruzədən aydın olur ki, 2025-ci il ərzində ombudsmanın ünvanına 42,685 müraciət daxil olmuşdur və bu da vətəndaşların hüquq müdafiə mexanizmlərinə olan etimadının göstəricisidir. Müraciətlərin spektri olduqca geniş olmaqla, mülki və siyasi hüquqlardan tutmuş, sosial-iqtisadi məsələlərə qədər müxtəlif sahələri əks etdirir.

Xüsusi ilə “azadlıq hüququ” kontekstində şəxsiyyət vəsiqələrinin verilməsi və qeydiyyat məsələləri ilə bağlı müraciətlər diqqət çəkir. Təcrübə göstərir ki, yaşayış yeri olmayan şəxslərin polis idarələrinin ünvanı üzrə qeydiyyata alınmasında hələ də müəyyən süründürməçilik halları mövcuddur. Hüquqi baxımdan bu, həm sərbəst hərəkət hüququnu, həm də

vətəndaşın digər dövlət xidmətlərindən yararlanmaq imkanlarını məhdudlaşdırır.

Eyni zamanda, ölkədən getmək hüququnun məhdudlaşdırılması ilə bağlı daxil olan müraciətlərin təhlili göstərir ki, bəzən Miqrasiya Məcəlləsinin tələbləri ilə praktiki tətbiq arasında uyğunsuzluqlar yaranır. Məsələn, şəxs barəsində konkret qətimkan tədbiri seçilmədiyi halda, onun sərhəd keçməsinə məhdudiyyət qoyulması hallarının araşdırılması hüquqi müəyyənlik prinsipinin qorunması baxımından vacibdir.

Məruzədə, həmçinin rəqəmsal transformasiya və süni intellektin tətbiqi zamanı şəxsi məlumatların mühafizəsi kimi müasir çağırışlara toxunulması təqdirəlayiqdir. Hesab edirəm ki, ombudsmanın bu genişşaxəli fəaliyyəti və qaldırdığı məsələlər qanunvericilik bazasının daha da təkmilləşdirilməsi üçün obyektiv zəmin yaradır. İnsan hüquqlarının müdafiəsi dinamik bir prosesdir və bu məruzə növbəti addımlarımızı müəyyən etmək üçün aydın strategiya təqdim edir.

**Malik Həsənov.** Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi geniş tərtib olunub və insan hüquqlarının qorunmasına dair bütün istiqamətləri əhatə edən məlumatlar əks olunub. Ombudsman təsis olunduğu dövrdən günümüzədək bu qurumun fəaliyyət istiqamətlərinin genişləndirilməsi baxımından xeyli işlər görülmüş, səmərəli qanunvericilik bazası formalaşdırılmışdır.

Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq, Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı, ərazilərin minalardan təmizlənməsi müasir yaşayış, iqtisadi fəaliyyətin nəqliyyat-kommunikasiya xətlərinin bərpası işlərinin

davam etdirilməsi və həmin şəxslərin hüquq və azadlıqlarının bərpası baxımından da olduqca əhəmiyyətlidir.

Ombudsmanın müzakirəyə təqdim olunan məruzəsində 2025-ci ilin ölkəmiz üçün milli və beynəlxalq səviyyədə baş verən mühüm proseslərlə yadda qaldığı bildirilib. Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu və Vətən müharibəsində Qələbənin 5-ci ildönümü münasibəti ilə Prezidentin müvafiq Sərəncamına əsasən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi, ölkənin beynəlxalq nüfuzunun daha da artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Bu təşəbbüsün, həmçinin qanunun aliliyinin və suverenlik dəyərlərinin təbliğinə və təşviqinə xidmət etdiyi diqqətə çatdırılıb. Ötən ildə dövlət başçısı tərəfindən irəli sürülmüş təşəbbüslə qəbul edilmiş və 20 mindən çox insanı əhatə edən amnistiya qərarının humanizm prinsiplərinə əsaslanan ən mühüm addımlardan biri olduğu vurğulanıb.

Sənədin tərtibatı, strukturu və məzmunu barədə müvəkkilin insan hüquqlarının qorunması sahəsində fəaliyyət istiqamətlərinin və öhdəliklərinin icra dinamikasını əks etdirən məlumatlar da öz əksini tapmışdır. Məruzədə mülki hüquqlara dair, o cümlədən mənzil fondu ilə bağlı məsələlər, əmlak alğı-satqısı, qeydiyyatla bağlı məqamlar yer almışdır.

İllik məruzədə məhkəmə qərarlarının icrası, o cümlədən alimentlə bağlı qərarların icrasında yaranan çətinliklər, aliment fondunun yaradılmasının zəruriliyi, eləcə də hüquqi yardımın göstərilməsi ilə bağlı məsələlərə toxunulub. Təqdim edilən məruzənin bütün bölmələri üzrə əks olunmuş informasiyanı ümumiləşdirsək və müqayisə etsək, görərik ki, bütün

istiqamətlər üzrə əvvəlki dövrlərə nəzərən artan dinamika müşahidə edilir. Bu da ölkəmizdə demokratikləşmə prosesinin hər ötən gün dərinləşməsinin və dövlət başçısı möhtərəm cənab Prezidentimizin iradəsinin təzahürlərindən biridir. Məruzədən görürük ki, ayrı-ayrı hüquqpozmalar və problemlər fonunda həll edilən məsələlərin və bərpa olunan haqsızlıqların sayı artır, hüquqazidd əməllərin statistikasında isə azalma gedir. Eyni zamanda, fəaliyyətdə səmərəliliyin artırılması yollarını özündə əks etdirməklə gələcəkdə daha uğurlu fəaliyyətin qurulmasına yardımçı olacaqdır. İl ərzində həyata keçirilmiş fəaliyyətin nəticələri deməyə əsas verir ki, insan hüquq və azadlıqlarının səmərəli təmini məqsədi ilə müraciətlərin təhlili prosesində formalaşmış səlahiyyətli dövlət qurumlarına təqdim edilmiş, habelə illik məruzədə öz əksini tapmış təklif və tövsiyələrin həyata keçirilməsinə diqqət daha da artırılmalıdır.

Ümid edirik ki, bu məruzə dövlət qurumları ilə ictimaiyyət arasında qarşılıqlı sistemli və davamlı irəliləyişə, habelə hüquq mədəniyyətinin yüksəlməsinə töhfə verəcəkdir.

**Sevinc Fətəliyeva.** Bu gün biz 2025-ci il üzrə İnsan hüquqları üzrə müvəkkilin illik məruzəsini müzakirə edirik. Təqdim olunan sənəd, sadəcə, statistik hesabat deyil, ölkəmizin hüquq müdafiə sisteminin vəziyyətinin dərin təhlilidir. Bu sənəd hüquq sistemimizin güzgüsüdür, vətəndaşların dövlətə etimadının göstəricisidir və eyni zamanda, dövlət siyasətinin daha da təkmilləşdirilməsi üçün mühüm alətdir.

Ümumilikdə, məruzə müsbət təəssürat yaradır. O göstərir ki, ombudsman institutu insan hüquqlarının müdafiəsində vacib mexanizm, vətəndaşlarla dövlət strukturları arasında birbaşa kommunikasiya kanalı olaraq fəaliyyətini davam etdirir. Rəqəmsallaşma, dövlət idarəçiliyində

islahatlar, azad edilmiş ərazilərin bərpası kimi dinamik dəyişikliklər fonunda bu cür institusional sabitlik xüsusi əhəmiyyət daşıyır.

Məruzə ombudsman institutunun sistemli fəaliyyətini, vətəndaşların yüksək etimadını (il ərzində 42 mindən çox müraciət) və həm paytaxtda, həm də regionlarda aparılan aktiv işi aydın şəkildə göstərir.

Çıxışımda insan hüquqlarının gələcəyini müəyyən edən strateji bir istiqamətə xüsusi diqqət yetirmək istərdim. Bu, rəqəmsallaşma və qlobal informasiya məkanında təhlükəsizlik məsələsidir. Biz elə bir dövrdə yaşayırıq ki, dövlət xidmətləri, təhsil və kommunikasiya sürətlə rəqəmsal mühitə keçir. Bu, böyük imkanlar açır, eyni zamanda, əvvəllər mövcud olmayan yeni risklər yaradır. Müvəkkilin məruzəsində rəqəmsal əlçatanlıq və dövlət orqanlarının onlayn mühitdə məsuliyyəti məsələlərinə haqlı olaraq toxunulur. Lakin bu gün qarşımızda daha geniş bir vəzifə dayanır – tam funksional rəqəmsal hüquqi ekosistemin formalaşdırılması.

Xüsusi ilə uşaqların rəqəmsal məkanda hüquqlarının qorunmasına diqqət yetirmək istəyirəm. Uşaqlarımız, demək olar ki, körpəlikdən internet istifadəçisinə çevrilirlər. Təəssüf ki, internet yalnız bilik mənbəyi deyil, eyni zamanda, risk zonasıdır: Kiberbullinq, dezinformasiya, destruktiv icmalar və şəxsi məlumatların sızması kimi təhlükələr mövcuddur. Yetkinlik yaşına çatmayanların bu mühitdə qorunması birdəfəlik tədbirlərlə deyil, sistemli profilaktika və dövlət, məktəb və ailə arasında sıx koordinasiya ilə təmin olunmalıdır. Bu kontekstdə Azərbaycan Respublikasının Prezidentinin informasiya və rəqəmsal təhlükəsizliyin gücləndirilməsi, o cümlədən yetkinlik yaşına çatmayanların qorunması ilə bağlı son sərəncamı prinsipial əhəmiyyət daşıyır. Dövlət başçısının bu addımı aydın strateji yanaşmanı nümayiş etdirir: XXI əsrdə insan hüquqları təhlükəsiz rəqəmsal mühit olmadan mümkün deyil.

Hörmətli həmkarlar, qanunverici olaraq bizim vəzifəmiz rəqəmsallaşmanın hüquqi tənzimləməni qabaqlamasına yol verməməkdir. Texnologiyalar insana xidmət etməli, onun üçün yeni həssaslıqlar yaratmamalıdır. Bu baxımdan, zəruri hesab edirəm:

1. Yetkinlik yaşına çatmayanların şəxsi məlumatlarının qorunması sahəsində qanunvericiliyin daha da təkmilləşdirilməsini;

2. Uşaqlar üçün əlçatan olan kontentə görə rəqəmsal platformaların məsuliyyətinin artırılmasını;

3. Rəqəmsal savadlılıq proqramlarının təhsil müəssisələrində genişləndirilməsini və təhlükəsizlik mədəniyyətinin ayrılmaz hissəsinə çevrilməsini.

Bundan əlavə, rəqəmsal transformasiya üzrə dövlət proqramlarının icrasına parlament nəzarətinin gücləndirilməsi olduqca vacibdir. Biz bu proqramları yalnız tətbiq olunan xidmətlərin sayı ilə deyil, hər bir vətəndaşın ləyaqət və hüquqlarının qorunması səviyyəsi ilə də qiymətləndirməliyik.

2025-ci il üzrə ombudsmanın məruzəsi, ümumilikdə, müsbət qiymətə layiqdir. O, hüquq müdafiə sistemimizin dayanıqlılığını, beynəlxalq dialoqa və cəmiyyətin tələblərinə açıq olduğunu göstərir. Lakin unutmamalıyıq ki, insan hüquqları canlı və daim dəyişən anlayışdır. Bu gün qarşımızdakı əsas çağırış onların rəqəmsal ölçüsüdür. Ümumi məqsədimiz Azərbaycanın təkcə texnoloji baxımdan inkişaf etmiş rəqəmsal dövlət deyil, həm də yüksək rəqəmsal məsuliyyətə malik dövlət olmasını təmin etməkdir.

**Tamam Cəfərova**. Qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə başda Birinci vitse-Prezident Mehriban xanım Əliyeva olmaqla, bütün qadınları təbrik edir, onlara can sağlığı, firavanlıq arzulayıram.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2025-ci il üzrə məruzəsi, ümumən, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında” Qanunun tələblərinə müvafiq olaraq hazırlanmışdır. Məruzə ombudsmanın fəaliyyəti çərçivəsində səlahiyyətlərinə aid məsələlər üzrə fəaliyyətini geniş şəkildə təsvir edir. Qeyd etmək lazımdır ki, ombudsman institutu bütün dünyada demokratik cəmiyyətin mühüm bir elementi kimi qəbul olunur. Azərbaycanda bu institut 2002-ci ildə məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb.

Təqdim olunan məruzədən də göründüyü kimi, ombudsman institutu öz fəaliyyətində, ilk növbədə, şəffaflığı, aşkarlığı, qanunun aliliyini, ədalət prinsiplərini rəhbər tutur. Hörmətli Səbinə xanımın məruzəsində gördük ki, bu instituta vətəndaşların müraciətlərinin sayı ildən-ilə artır. 2025-ci ildə bu quruma 42685 müraciət daxil olub. Əlbəttə, bu, ombudsmanın fəaliyyətinin qiymətləndirilməsi baxımından meyar ola bilər. Hamımız yaxşı bilirik ki, müraciətlərin sayının çox olması əhalinin bu quruma olan etimad və inamının göstəricisidir.

Ombudsmanın 2025-ci il üçün məruzəsi kifayət qədər əhatəli, obyektiv və sistemli hazırlanmışdır. İnsan hüquqlarına dair kifayət qədər faktoloji materiala, eyni zamanda, həm də konkret sahələr üzrə əhatəli məlumatlara əsaslanır. Eyni zamanda, məruzənin sonunda kifayət qədər əhatəli təklif və tövsiyələr irəli sürülüb. Əlbəttə ki, bunu müsbət qiymətləndirməliyik. Təqdim olunan sənəd ötən il ərzində ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində görülmüş işlərin, qarşıda duran çağırışların və institusional inkişaf meyillərinin əhatəli təhlilini təqdim edir.

İlk növbədə qeyd etmək istəyirəm ki, məruzədə vətəndaş müraciətlərinin dinamikası, onların tematik bölgüsü və həlli istiqamətində atılmış addımlar aydın şəkildə əksini tapmışdır. Bu, şəffaflıq və hesabatlılıq

baxımından mühüm göstəricidir. Vətəndaş məmnunluğunun artırılması, operativ araşdırma mexanizmlərinin təkmilləşdirilməsi və regionlarda qəbul imkanlarının genişləndirilməsi ombudsman təsisatının cəmiyyətə daha da yaxınlaşdığını göstərir.

Eyni zamanda, sosial hüquqların qorunması, xüsusi ilə həssas əhali qruplarının – şəhid ailələrinin, qazilərin, əlilliyi olan şəxslərin, uşaqların və qadınların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən monitorinqlər və hüquqi maarifləndirmə tədbirləri təqdirəlayiqdir. Bu fəaliyyət dövlətimizin sosial ədalət prinsipinə sadiqliyinin praktik ifadəsidir.

Hesab edirəm ki, penitensiar müəssisələrdə, saxlanma yerlərində aparılan mütəmadi monitorinqlər, preventiv mexanizmlərin tətbiqi və tövsiyələrin icra vəziyyətinə dair aparılan təhlillər hüquqi dövlət quruculuğunun mühüm elementlərindəndir. İnsan ləyaqətinin qorunması hər bir dövlət orqanının fəaliyyətinin əsas meyarı olmalıdır.

Bununla yanaşı, rəqəmsallaşma dövründə şəxsi məlumatların qorunması, kibertəhlükəsizlik və onlayn platformalarda insan hüquqlarının təmin edilməsi kimi yeni çağırışlar da gündəmdədir. Məruzədə bu istiqamətdə hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı irəli sürülən təkliflər aktual və zamanın tələblərinə uyğundur.

Biz Milli Məclis olaraq qanunvericilik təşəbbüslərində ombudsmanın tövsiyələrini diqqətlə nəzərdən keçirməli, insan hüquqlarının daha effektiv müdafiəsi üçün normativ hüquqi bazanı daim təkmilləşdirməliyik. Çünki hüquqların təminatı yalnız nəzarət mexanizmi ilə deyil, eyni zamanda, qabaqlayıcı və sistemli qanunvericilik siyasəti ilə mümkündür.

Ümumilikdə, hesab edirəm ki, 2025-ci il üzrə illik məruzə dolğun, analitik və praktik təkliflərlə zəngindir. Qarşıda duran əsas vəzifə bu tövsiyələrin icrasının təmin olunması, dövlət qurumları arasında

koordinasiyanın gücləndirilməsi və vətəndaş–dövlət münasibətlərində etimad mühitinin daha da möhkəmləndirilməsidir.

İnsan hüquqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və bu sahədə əldə olunan hər bir nailiyyət ölkəmizin demokratik inkişafına xidmət edir.

**Vasif Qafarov.** Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci il üzrə məruzəsi insan hüquqlarının müdafiəsi sahəsində mövcud vəziyyəti kompleks, sistemli və faktlara əsaslanan şəkildə təqdim edən mühüm strateji sənəd kimi qiymətləndirilə bilər. Məruzədə bütün sahələrdə insan hüquqları məsələləri konkret müraciətlər, statistik göstəricilər və faktiki hallar əsasında təhlil olunub. Bu yanaşma sənədin yalnız hesabat xarakteri daşımadığını, eyni zamanda, normativ və təşkilati mexanizmlərin gücləndirilməsi üçün istiqamətverici rol oynadığını göstərir. Həmçinin məruzədə hüquqi sahədə normativ boşluqların aradan qaldırılması ilə bağlı irəli sürülən təklif və tövsiyələr müsbət qiymətləndirilə bilər.

Bununla yanaşı, məruzədə “nəzarətin gücləndirilməsi” kimi ümumi xarakterli ifadələrin konkret icra mexanizmləri və ölçülə bilən göstəricilərlə dəstəklənməsi praktik nəticəliliyi artırardı.

Məruzədən görünür ki, son illərdə ölkədə narkomaniya və toksikomaniya hallarının artması insan hüquqlarının təminatı baxımından ciddi sosial çağırış kimi çıxış edir. Dövlət Statistika Komitəsinin 2025-ci il üzrə məlumatlarına əsasən son 5 ildə narkomaniya xəstələrinin sayının 2723 nəfərdən 4967 nəfərədək, toksikomaniya hallarının isə 122 nəfərdən 1091 nəfərədək artması problemin miqyasının genişləndiyini göstərir. Bu tendensiya fərdin sağlamlıq hüququna təhlükə yaratmaqla yanaşı, gənc

nəslin fiziki və psixi inkişafına mənfi təsir göstərir, ailə institutunu zəiflədir və sosial sabitliyə risk yaradır. Bu baxımdan, gənclər arasında maarifləndirmə və profilaktik proqramların genişləndirilməsi prioritet vəzifə kimi çıxış edir.

Məruzədə təhsil hüququnun təminatı ilə bağlı qeyd edilən məsələlər, xüsusi ilə Nazirlər Kabinetinin 2020-ci il 22 iyun tarixli 212 saylı Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı Normaları"nın tətbiqi ilə ibtidai təhsil səviyyəsində şagird sayı 10 nəfərdən az olan siniflərin birləşdirilərək komplektləşdirilməsi məsələsinə yenidən baxılması da aktuallıq kəsb edir.

Əsas etibarı ilə ucqar dağlıq rayonlarda tətbiq edilən bu norma ilə 1-ci siniflə 3-cü sinfin, 2-ci siniflə 4-cü sinfin 45 dəqiqəlik dərsi bir yerdə keçməsi ayrı-ayrı yaş qrupları və təhsil səviyyələri arasında tədris prosesinin təşkilində problemlər yaradır. Bu da təhsilin keyfiyyətinə və təhsilalanların proqram materiallarını mənimsəmələrinə mənfi təsir göstərir.

Nəzərə almalıyıq ki, bu gün Azərbaycan elmi də, Azərbaycan təhsili də əsas etibarı ilə həmin ucqar kəndlərdə böyüyən və o kəndlərdə təhsil alan insanların çiyinlərindədir. Digər tərəfdən, bu normanın tətbiqi ilə biz ucqar kənd yerlərində yaşayan uşaqların bərabərhüquqlu təhsil imkanlarını onların əlindən almış oluruq. Həmin kənd məktəblərindəki siniflərdə uşaq sayının 10 nəfərdən az olması o kəndlərdə yaşayan uşaqların günahı deyil. Buna görə də, hesab edirəm ki, adıçəkilən normaların mənfi təsirləri nəzərə alınaraq, həmin normalara yenidən baxılması məqsədəuyğun olardı. Eyni zamanda, ucqar kənd yerlərində müəllim çatışmazlığının aradan qaldırılması istiqamətində addımların atılması da zəruridir.

Məşğulluq və sosial müdafiə sahəsində isə pensiya yaşına az qalmış işsiz şəxslərin məşğulluq imkanlarının artırılması məqsədi ilə

“Özünüməşğulluğun təşkili Qaydası”nın 1.2-ci bəndində pensiya yaşına 2 ildən az qalmış şəxslərə münasibətdə nəzərdə tutulmuş 2 illik müddətin 5 illə əvəz edilməsi, eləcə də himayəsində 3 və ya daha çox uşağı olan şəxslərin də bu mexanizm çərçivəsində nəzərə alınması bu kateqoriyadan olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi baxımından müsbət addım ola bilər.

Eyni zamanda, 60 yaşdan yuxarı şəxslərin Əmək Məcəlləsinin 79-cu maddəsində əmək müqaviləsinin ləğvi qadağan edilən şəxslər siyahısına daxil edilməsi onların əmək hüquqlarının əlavə təminatı kimi çıxış edə bilər.

Səhiyyə xidmətlərinin əlçatanlığı məsələsində isə “Kənd yerlərindəki tibb müəssisələrinə tibbi kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında” Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli Qərarı ilə müəyyən edilmiş maliyyə təminatlarının mövcud sosial-iqtisadi şəraitə uyğun yenidən nəzərdən keçirilməsi və artırılması və bu yolla regionlarda ixtisaslı tibbi xidmətlərin gücləndirilməsi əhalinin sağlamlıq hüququnun effektiv təminatı baxımından əhəmiyyətli olardı.

Ümumilikdə, ombudsmanın 2025-ci il üzrə məruzəsi insan hüquqlarının müdafiəsi sahəsində real vəziyyəti obyektiv şəkildə əks etdirən, problemləri sistemli formada təqdim edən və normativ-hüquqi sistemin daha da təkmilləşdirilməsi üçün əsaslı istiqamətlər müəyyən edən strateji əhəmiyyətli sənəddir.

Təkliflərin konkret icra mexanizmləri, ölçülə bilən indikatorlar və maliyyə əsaslandırması ilə gücləndirilməsi onların praktik nəticəliliyini daha da artıracaqdır.

Bununla belə, sənəd, bütövlükdə, insan hüquqlarının müdafiəsi sahəsində davamlı inkişafı təşviq edən, dövlət idarəçiliyində şəffaflığı və

hesabatlılığı gücləndirən, hüququn aliliyi prinsipinə əsaslanan təqdirəlayiq və əhəmiyyətli hesabat kimi dəyərləndirilə bilər.